

Milli azadlıqdan şirin nemət yoxdur!

# Həmin gecə bütün Azərbaycan ayağa qalxmışdı...

## Heydər Əliyevin bir çağırışı ilə




Bax səh. 3


YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 oktyabr 2024-cü il, cümə
№ 182 (6768)
Qiyməti 60 qəpik


# Prezident və birinci xanım Şərqi Zəngəzurda...




Bax səh. 2

# 4 il əvvəl, 4 oktyabrda...

## İşğaldan azad edilən ilk şəhər - Cəbrayıl




Bax səh. 3

# Hədəf korrupsiyasız həyatdır!

Bax səh. 5

İlham Əliyev
@azpresident

Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

4:39 PM · Oct 4, 2020 · Twitter Web App

# Zəfərə 36 gün qalırdı...

Bax səh. 4

İlham Əliyev
@azpresident

Bu gün Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri işğaldan azad edilmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!

Translate Tweet

8:26 PM · Oct 4, 2020 · Twitter for iPhone

# "Yaşıl tərəfdaşlıq" koalisiyasının etibarlı üzvü

Bax səh. 6

## bp-nin azad ərazilərdə ilk sərmayəsi

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və bp arasında uzun illərdir ki, davam edən qarşılıqlı və səmərəli əməkdaşlığın mühüm nəticəsi olaraq oktyabrın 2-də Cəbrayıl rayonunda "Şəfəq" layihəsinin icrasına dair saziş imzalanıb. bp şirkəti ilə SOCAR-a məxsus "SOCAR Green" MMC və "Azərbaycan İnvestisiya Şirkəti" ASC arasında imzalanmış Birgə İştirak Müqaviləsinə əsasən, Cəbrayılda 240 MVt-lıq "Şəfəq" Günəş Elektrik Stansiyası (GES) inşa ediləcək. Layihə çərçivəsində "Virtual Enerjinin Ötürmə Mexanizmi"...

Bax səh. 5

## Tarixi məqam və zərurət...




## Qərbi Azərbaycan mühacir hökuməti yaradılmalıdır!

Bax səh. 4

## Afrikada Fransanın neokolonializm siyasəti...

Oktyabrın 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Afrikada Fransanın neokolonializm siyasətinə həsr edilmiş beynəlxalq konfrans keçirilib. Konfransda Afrikanın Seneqal, Burkina Faso, Kamerun, Qvineya-Bisau, Konqo Demokratik Respublika, Mavritaniya, Zimbabve, Niger, Fransa və Fransanın əsarəti altında olan Mayot adasının nümayəndələri iştirak ediblər.

Konfransda Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, qrupun fəaliyyəti həm keçmiş, həm də indiki koloniyalar tərəfindən yüksək qiymətləndirilir. Onun...

Bax səh. 6



## Qərbə növbəti "zərbə"

Bax səh. 7

## NATO-nun yeni Baş katibindən Ukraynaya dəstək

Bax səh. 7

# Prezident və birinci xanım Şərqi Zəngəzurda...

### Cəbrayılda...

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verib.

Layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.

Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir.

Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə hazır evlərə baxıblar. Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

***

Sonra dövlətimizin başçısı Cəbrayıl şəhərində "Azərsun Holding" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.

"Azərsun Holding" şirkətinin Müşahidə Şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verib.

Bildirilib ki, qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axınının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq.

Alkoqolsuz içkilərin istehsalı kompleksinin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiyanın qoyuluşu nəzərdə tutulur.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

***

Prezident İlham Əliyev oktyabrın 3-də Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.

"Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verib. Bildirilib ki, müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq.

Birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal ediləcək.

Bununla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin 2 hektar ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək.

Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev fabrikin təməlini qoydu.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verib.
















Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye Parkının əsas fəaliyyət istiqaməti kimi Parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır.

Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, bu Sənaye Parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir.

Sənaye parkının hazırda 13 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq Parka 133,8 milyon manat investisiyanın yatırılması, 2 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən Sənaye Parkına 20 milyon manatdan artıq investisiya yatırılıb, 40-dan çox daimi iş yeri yaradılıb.

Rezidentlər tərəfindən sənaye parkında fibrobeton və polistirolbeton blokların, quru inşaat qatqılarının, tamet daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, ayaqqabıların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların və digər məhsulların istehsalı, 40 otaqlı otelin və 100 nəfərlik restoranın tikintisi həyata keçiriləcək, logistik mərkəz inşa olunacaq.

Hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bir müəssisə fəaliyyət göstərir. Müəssisədə kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında əvvəlcə Litvanın "Dominari" şirkətinin mebel klasterinin təməlqoyma mərasimində iştirak etdilər.

Litvanın "Dominari" şirkəti qısa müddət ərzində Baltikyanı ölkələrin və Şərqi Avropanın aparıcı mebel istehsalçılarından birinə çevrilib. Hazırda şirkət 2 min işçi və 200-dən çox korporativ müştəri bazasına malikdir.

Prezident İlham Əliyev "Dominari" şirkətinin mebel klasterinin təməlini qoydu.

***

Sonra dövlətimizin başçısı və birinci xanım sənaye parkında "Karabakh Stone" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak ediblər.

"Karabakh Stone" MMC 2024-cü ilin iyulunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət Sənaye Parkının 3,5 hektar ərazisində yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı zavodun təməlini qoyub.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sənaye Parkında, həmçinin "Prestij-Kimya" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak ediblər.

Şirkət Sənaye Parkının 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin ediləcək.

Türkiyənin, Çinin, Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsal olunması nəzərdə tutulur. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazarla yanaşı, xarici bazarlarda da satışı planlaşdırılır.

Dövlətimizin başçısı zavodun təməlini qoyub.



### Zəngilanda...

Prezident İlham Əliyev oktyabrın 3-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Zəngilan" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb.

***

Sonra dövlətimizin başçısı Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməlini qoyub.

Yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir.

Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

***

Prezident Zəngilan şəhərində altıncı yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib.

Yaşayış kompleksi orta sıxlıqlı ərazidə, məktəb, uşaq bağçası, inzibati və ticarət zonalarının yaxınlığında yerləşəcək. Kompleks 3 hektar ərazidə yaradılacaq.

Baş plana uyğun olaraq, kompleksdə 3, 4, 5 və 6 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Burada tikiləcək yaşayış binalarında 177 mənzilin olması planlaşdırılıb.

Prezident İlham Əliyev altıncı yaşayış məhəlləsinin təməlini qoydu.

***

Dövlətimizin başçısı Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub. Kompleksdəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən istifadə edilib.










***

Prezident İlham Əliyev oktyabrın 3-də Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verib.

Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Hotel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində, həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək.

Hoteldə 70 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

***

Dövlətimizin başçısı Zəngilan rayonunda "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

"Sarıqışlaq" SES Oxçu çayının üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - "Cahangirbəyli", "Şayıflı" və "Zəngilan" Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq tikilən "Sarıqışlaq" SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib.

Prezident İlham Əliyev "Sarıqışlaq" Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Sarıqışlaq" SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir.

# Həmin gecə bütün Azərbaycan ayağa qalxmışdı...

## Heydər Əliyevin bir çağırışı ilə

### İsa Qəmbər: Heydər Əliyev bizə dərs verdi
### Qurban Məmmədov: Heydər Əliyev idarəçilik ensiklopediyasıdır






**4 oktyabr 1994-cü il**

Müqayisələr apardıqda Ulu Öndər Heydər Əliyevlə ayrı-ayrı liderlərin dövlət idarəçiliyinə yanaşmalarında bir fərq qırmızı xətt kimi diqqət çəkir. Dünya təcrübəsində onilliklər boyunca müxtəlif institutlar tərəfindən dövlət idarəçiliyi ilə bağlı fərqli nəzəriyyələr işlənib hazırlanıb. Liderlər də əksər hallarda öz fəaliyyətlərini həmin konseptual nəzəriyyələrə əsasən qururlar. Ulu Öndər Heydər Əliyevə gəldikdə isə, Onun idarəçilik fəlsəfəsinin mərkəzində xalqa xidmət və xalqa güvən formulunun dayandığını görürük. Bütün həyatı və fəaliyyəti boyu Azərbaycan naminə etdikləri təsdiqləyir ki, bu böyük şəxsiyyətin amalı xalqa, Vətənə sidq ürəklə xidmət göstərmək olub. Eyni zamanda, xalqa bəslənilən inam və xalqdan gələn dəstək Heydər Əliyev üçün müqayisəyəgəlməz enerji mənbəyi, kritik məqamlarda qəti qərarlar qəbul etmək üçün daxili güc amili idi.

**4 oktyabra aparan yol**

Söhbət 1993-cü ilin 3 oktyabrından 1994-cü ilin 4 oktyabrınadək olan birillik zaman kəsiyindən gedir. 1993-cü il 3 oktyabr tarixində Heydər Əliyev ilk dəfə müstəqil Azərbaycanın Prezidenti seçildi. 1994-cü il 4 oktyabr tarixində isə Ulu Öndər respublikamızda növbəti dövlət çevrilişinə cəhdin qarşısını aldı. Gənc müstəqil dövlətimiz üçün müstəsna önəm daşıyan hər iki tarixi hadisəni birləşdirən əsas məqam isə yenə də Heydər-Xalq, Xalq-Heydər vəhdətidir.

O dövrə qısa ekskurs edək. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanda yaşanan hadisələri təhlil etdikdə istər-istəməz respublikamızın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin yenidən itirilməsi təhlükəsindən danışmaq məcburiyyətində qalırıq. 1992-ci ilin yazında respublikamızda qanuni hakimiyyəti zorla devirərək iqtidara gələn AXCP-"Müsavat" cütlüyü cəmi bir il ərzində Azərbaycanı böyük fəlakətin - vətəndaş qarşıdurmasının astanasına gətirib çıxartmışdı. Hadisələr elə cərəyan edirdi ki, kövrək müstəqilliyimizin əldən getməsi tam real idi. Gəncədə ilk qardaş qanı axıdılmışdı. Belə çətin dönəmdə xalq üzünü Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə tutaraq Onun təkidlə Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini tələb etdi. Heydər Əliyev çətin seçim qarşısında idi. Başqası olsaydı, həmin xaotik vəziyyətdə həyatını və karyerasını təhlükəyə atmaqdan çəkinərək suların durulmasını gözləyərdi. Ancaq söhbət Heydər Əliyevdən gedirdi. Çətinliklərlə üzləşən xalqı ona üz tutmuşdu, güvənmişdi. O, xalqın güvəninin, inamının qırılmağını Özünə rəva görə bilməzdi. Bilmədi də. Bakıya gəlib respublikanın idarəçilik sükanının arxasına keçməyə razılıq verdi. Ulu Öndər iyunun 9-da Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə O, Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Və nəhayət, 1993-cü il 3 oktyabr tarixində ölkədə keçirilən prezident seçkiləri. Həmin gün insanlar səhər tezdən seçki məntəqələrinə, sözün əsil mənasında, axın etdilər. Bütün ölkə üzrə vətəndaşların yüksək fəallığı şəraitində keçən seçkilərdə səslərin 98 faizdən çoxu (98.84 faiz ) məhz Ulu Öndər Heydər Əliyevə verilmişdi. Bu, seçicilərin, xalqın Azərbaycanı idarə etməyə Heydər Əliyevdən başqa heç kimi layiq görmədiklərinin ifadəsi idi.

Seçicilərin mütləq əksəriyyətinin səsini qazanmaq müdrik dövlət xadimi olan Heydər Əliyev üçün yalnız bir lider xoşbəxtliyi deyildi. Ulu Öndər keçdiyi şərəfli həyat yolunda belə sevincli anları çox yaşamışdı. O, sevimli xalqının etimadını qazanmağı Özü üçün həqiqətən böyük xoşbəxtlik sanırdı. Ancaq xalqın inamı, dəstəyi onun üçün daha çox məsuliyyət demək idi. O, Özünə hesabat verirdi: Xalqdan ölkənin müstəqilliyini qorumağa, dövlət idarəçiliyini formalaşdırmağa, dağılmış iqtisadiyyatı bərpa etməyə, sərhədlərin müdafiəsini təşkil etməyə, ərazi bütövlüyünə nail olmağa, inteqrasiyanı sürətləndirməyə, cəmiyyətdə həmrəylik yaratmağa mandat almışam. Xalqın etimadını doğrultmaq, Azərbaycanı gözlənilən fəlakətlərdən qorumaq, bu yolda prinsipiallıq göstərmək lazımdır. Zaman məhdud, görüləsi işlər çox idi.

**Şər qüvvələr tələsirdilər**

Belə bədnam ssenarilərin həyata keçirilməsi Azərbaycanın yenidən xaosa, qeyri-müəyyənliyə yuvarlanması və müstəqilliyini itirmək təhlükəsi ilə üzləşməsi anlamına gəlirdi. Şər qüvvələr sanki tələsirdilər. "Əsrin müqaviləsi"nin imzalanmasından dərhal sonra Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasından dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə qatı cinayətkar qaçırıldı. Sentyabrın 29-da Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov namərdcəsinə qətlə yetirildilər. Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin fəaliyyəti getdikcə qanunların çərçivəsini daha çox aşırdı. Bəhs olunan qətillərin isti izi ilə "OMON" kimi tanınan həmin dəstənin bir qrup üzvü baş prokurorluğun qərarı ilə həbsə alındı. Bundan sonra "OMON"-a faktiki rəhbərliyi həyata keçirənlər dövlətə qarşı çirkin niyyətlərini açıq müstəvidə sərgiləməyə başladılar. Pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüş "OMON"-un 30-a qədər döyüşçüsü Respublika Prokurorluğuna hücum etdi. Əməliyyata başçılıq edən Mahir Cavadov həmkarlarına qarşı dözümsüzlük göstərərək vəzifə borcunu icra edən respublikanın baş prokurorunu vəhşicəsinə döydü, prokurorluğun binasını zəbt edərək dağıntılar törətdi. Daha sonra isə 40 nəfərlik dəstə ilə Daxili İşlər Nazirliyinə hücum olundu. Amma üsyançılar layiqli cavab alaraq geri çəkildi. Respublika Prokurorluğunun binası "OMON" tərəfindən mühasirəyə alındı. Oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam isə şəhər İcra Hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Eyni zamanda, Bakıda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident Sarayına, Ali Sovetin və Müdafiə Nazirliyinin binalarına tuşlayıb əmrə müntəzir dayanmışdı. Aydın göründü ki, hadisələr eyni mərkəzdən sinxron qaydada idarə edilir.

**Bir güllə belə atılmadan...**

Bu cür taleyüklü məqamda hansı addımlar atılmalı idi? Sualın cavabı olaraq ilk ağla gələn versiya belə ola bilərdi: İğtişaş törədənlərin, dövlət orqanlarının fəaliyyətinə imkan verməyənlərin ram edilməsi üçün qanuni silahlı birləşmələrdən istifadə olunsun. Heydər Əliyev isə Ona xas olan idarəçilik metoduna əl ataraq oktyabrın 4-də axşam saatlarında radio və televiziya vasitəsilə xalqa müraciət ünvanladı. Ulu Öndər öz müraciətində bu ağır gündə hamıdan mətanət, dəyanət, cəsarət, qəhrəmanlıq, namus, qeyrət gözlədiyini bildirdi və xalqı Prezident Aparatının qarşısına dəvət etdi. Çox keçmədi ki, Prezident Aparatının qarşısı insan selinə qərq oldu. Sosial mənşəyindən asılı olmayaraq insanlar bura gəlib Heydər Əliyevə dəstək verməyi özlərinə mənəvi borc sanırdılar. Həmin gecə bütün Azərbaycan Heydər Əliyevin çağırışı ilə ayağa qalxmışdı.

Ertəsi gün - oktyabrın 5-də daha böyük izdiham-təxminən bir milyon insan "Azadlıq" meydanına toplaşaraq respublikanın müstəqilliyinin, dövlətçiliyimizin qorunmasında Prezident Heydər Əliyevin yanında olduqlarını nümayiş etdirdi. Meydana toplaşanlar qarşısında çıxış edən Ulu Öndər baş verənləri müstəqilliyimizə qarşı qəsd kimi dəyərləndirərək dedi: "Son günlərdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa yönəldilmiş əməllərdir. Onu da bilin ki, bu hadisələr, ümumiyyətlə, Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi bir dövlət kimi məhv etmək üçün qurulan planların bir hissəsidir. Qoy, hamı bilsin və əmin olsun ki, bu bəd niyyətlərin və bu çirkin planların heç birisi həyata keçməyəcəkdir! Azərbaycan xalqı buna yol verməyəcəkdir! Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaqdır".

Beləliklə, müdrik siyasətçi Heydər Əliyev dövlət çevrilişinin qarşısını məhz doğma xalqına güvənməklə aldı. Silahlar işə salınmadı, bir güllə belə atılmadı. Budur Liderin, Prezidentin xalqına güvəninin və Xalqın ona dəstəyinin nəticəsi! Dünya siyasi tarixi bundan öyrənməli və ibrət götürməlidir. Yeri gəlmişkən, o dövrdə sinələrinə döyüb özlərini "lider" sananlar Heydər Əliyevin müdrik gedişindən şoka düşdüklərini etiraf edirdilər. Zamanında Qurban Məmmədov Heydər Əliyevin idarəçilik ensiklopediyası olduğunu bildirirdi. Özünü ana müxalifətin öndəgedəni sayan İsa Qəmbər elə belə də deyirdi: "Heydər Əliyev bizə dərs verdi". Heydər Əliyevdən əvvəl prezident vəzifəsini tutan Əbülfəz Elçibəy isə çiyindaşlarına gileylənirdi ki, lazım gələndə meydanlara heç 300 nəfər də toplaya bilmirlər.

Bütün bu kimi etiraflar nəyin əlamətidir? Onun əlamətidir ki, özlərini "lider"adlandıranlar vəzifəyə gəldikdən sonra xalqın etimadını doğrultmaq barədə düşünmürlər. Çox keçmir ki, onlarla xalq arasında keçilməz sədlər yaranır.

*Mübariz ABDULLAYEV*

# 4 il əvvəl, 4 oktyabrda...

## İşğaldan azad edilən ilk şəhər - Cəbrayıl

**Bu gün Cəbrayıl Şəhəri Günüdür. Prezident İlham Əliyevin 2023-cü il 31 iyul tarixində imzaladığı sərəncama əsasən, hər il oktyabrın 4-də Cəbrayıl Şəhəri Günü təntənəli şəkildə qeyd edilir. Bu əlamətdar günün təsis olunması Cəbrayıl şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. Tarixin bu günündə - 2020-ci il oktyabrın 4-də şəhər erməni işğalçılarından azad edilib.**

### Erməni vandalizminin kədərli izləri

Cəbrayıl da respublikamızın işğala məruz qalan ərazi vahidlərindəndir. 1930-cu ilin avqustunda yaradılan Cəbrayıl rayonu 23 avqust 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən zəbt edilib. İşğaldan əvvəl sahəsi 104980 hektar olan Cəbrayıl rayonu 23 inzibati ərazi nümayəndəliyini, o cümlədən 1 şəhər, 4 qəsəbə, 92 kəndi özündə birləşdirib. İşğal altına düşən digər ərazilərimizdə olduğu kimi, ermənilər Cəbrayılda da sərhəd tanımayan vandalizm əməlləri törədiblər.

Bütövlükdə, işğalın fəsadları çox ağır olub. İşğal nəticəsində rayonun 1 şəhəri, 4 qəsəbəsi, 92 kəndi erməni quldurları tərəfindən talan edilərək yandırılıb, 132-dən çox yerli əhəmiyyətli tarixi, mədəniyyət və dini abidələr vandalizmə məruz qalıb. Bununla bərabər, rayon ərazisindəki 13147 fərdi yaşayış evi, 886 ictimai bina, 8 sənaye, 44 kənd təsərrüfatı, 149 mədəniyyət, 91 təhsil, 1 məktəbdənkənar müəssisə, 3 uşaq musiqi məktəbi, 1 Texniki Peşə məktəbi, 77 səhiyyə, 96 məişət xidməti obyekti, 65 rabitə, 56 körpü, 28 su anbarı, 32 nasos stansiyası, 65 km qaz kəməri, 11 tikinti müəssisəsi düşmən əlinə keçib. Rayon işğal edilərkən əhalinin şəxsi təsərrüfatında olan 26 min başdan çox iri, 53224 başdan çox xırdabuynuzlu heyvanlar qarət olunub. Ümumiyyətlə, işğal nəticəsində rayona 5.346.654.240 AZN dəyərində ziyan vurulub.

### Qisas qiyamətə qalmadı

Düşmən nə qədər amansız, qəddar olsa da, qisas qiyamətə qalmadı. Cəbrayıl şəhərinin və bütövlükdə rayonun işğaldan azad edilməsinə gedən yol Cocuq Mərcanlıdan başlayıb. 1994-cü il 5 yanvar tarixində Horadiz əməliyyatı zamanı Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad olunub. Lakin ətrafdakı yüksəkliklər ermənilərin nəzarətində olduğuna görə kənd hələ də təhlükə altında idi. 2016-cı ildə baş vermiş uğurlu Aprel döyüşlərindən sonra Cocuq Mərcanlı kəndi üzərində erməni təhlükəsinə birdəfəlik son qoyuldu. Prezident İlham Əliyev 24 yanvar 2017-ci il tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamda qeyd olunduğu kimi, aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır. Həmin sənədə uyğun olaraq kənddə genişmiqyaslı layihələr həyata keçirilib. Dövlətimizin başçısı 14 iyun 2017-ci ildə Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpadan sonra açılışında şəxsən iştirak edib.

Aprel Zəfəri, Cocuq Mərcanlının bərpası tezliklə digər ərazilərimizin də geri qaytarılacağına böyük ümidlər yaratdı. Həmin tarixi anlara isə 44 günlük Vətən müharibəsində şahidlik etdik. Müzəffər Ordumuz Vətən müharibəsinin elə ilk günlərindən düşmən üzərində üstünlüyü ələ aldı. Xatırladaq ki, 2020-ci il 27 sentyabr tarixində Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri, 3 oktyabr tarixində Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad edildi.

Dörd il bundan əvvəl oktyabrın 4-də Prezident, Ali Baş Komandan İlham Əliyev Özünün növbəti müjdə tvitlərindən birini paylaşdı. Paylaşım Cəbrayıl şəhərinin işğaldan azad edilməsi ilə bağlı idi. "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!", - deyə dövlətimizin başçısı paylaşımında bildirirdi.

Eyni zamanda, Prezident İlham Əliyev Cəbrayıl şəhərinin işğaldan azad edilməsi ilə bağlı xalqa müraciət ünvanladı. Cəbrayıl işğaldan azad olunan ilk şəhərimiz idi ki, bu da çox böyük rəmzi mənaya malikdir. Oktyabrın 4-də Cəbrayıl şəhəri ilə yanaşı, rayonun 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndləri işğaldan azad olunub. Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində ümumilikdə 1 şəhər və 90 kənd işğaldan azad edilib. Cəbrayılın düşmən işğalından təmizlənməsi ilə Azərbaycan-İran sərhədinə dövlət nəzarəti qismən bərpa edilib. Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan digər rayonlara uğurlu əks-hücum həyata keçirmək mümkün oldu. Cəbrayıldan sonra Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Üstəlik, Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü.




### Cəbrayılın xoşbəxt günləri

Tarixi Qələbəmizdən sonra Cəbrayılın da xoşbəxt günləri başlayıb. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 6 gün sonra - 2020-ci il noyabr ayının 16-da Prezident İlham Əliyev və və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Cəbrayıl rayonunda olublar. Dövlətimizin başçısı Cəbrayıl şəhərində və Xudafərin körpüsündə şanlı Azərbaycan Bayrağını qaldırıb. Bundan sonra Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərimizə, o cümlədən də Cəbrayıla səfərləri müntəzəm hal alıb. 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edilib. Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmiş 12523 hərbi qulluqçu medalla təltif edilib.



Bu gün işğaldan azad olunmuş ərazilərdə sürətli bərpa və quruculuq işləri həyata keçirilir. Göz önündə yeni bir Qarabağ formalaşır. O cümlədən Prezident İlham Əliyev azadlığına qovuşan Cəbrayılda "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. Eyni zamanda, Prezident 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının və Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib. Bundan əlavə, dövlət başçısı Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub. Bütövlükdə, açılış və təməlqoyma tədbirlərinin siyahısı çox uzundur.

### Cəbrayıl şəhərinə ilk köç

Güclü dövlət olan Azərbaycan soydaşlarımızın işğaldan azad olunmuş ərazilərə qayıdışını ləyaqətlə təmin etmək əzmindədir. Böyük Qayıdış Proqramının icrası uğurla təmin edilir və bir-birinin ardınca Qarabağa köç karvanları yola salınır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət ilk köç karvanı bu günlərdə Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. İlkin olaraq Cəbrayıl şəhərinə 36 ailə - 117 nəfər köçürülüb.

*Mübariz FEYİZLİ*

# Zəfərə 36 gün qalırdı...

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

**Vətən müharibəsinin 8-ci günü**

**04.10.2020**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib.


İlham Əliyev
@azpresident
Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
4:39 PM · Oct 4, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Bu gün Cəbrayıl rayonunun Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal kəndləri işğaldan azad edilmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
8:26 PM · Oct 4, 2020 · Twitter for iPhone

***

Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulub.

***

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə atəşə tutulub.

***

Dəfələrlə edilən xəbərdarlığa məhəl qoymayan düşmənə qarşı Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülüb.

***

Düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələri məhv edilib

***

Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan ölkəmizin erməni vətəndaşlarına müraciət edərək bildirib ki, Azərbaycan Ordusu dinc əhalini, mülki obyektləri və infrastrukturu hədəfə almır.

"Azərbaycan Ordusunun hədəfi işğal olunmuş ərazilərimizdəki atəş mövqeləri, hərbi obyektlər və hərbi infrastrukturdur. Bununla əlaqədar bu ərazilərdə məskunlaşan mülki əhalini döyüşlər gedən bölgələrdən uzaq durmağa çağırırıq.

Bildiririk ki, onların ağır döyüşlərdən ziyan çəkməməsi və ərazidən maneəsiz təxliyəsi üçün tərəfimizdən müvafiq şərait yaradılacaq. Mülki əhali ilə Cenevrə Konvensiyasının tələblərinə uyğun rəftar olunacaq və onların insan hüquqları qorunacaq".

***

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

***

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

***



Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev Birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Onlara tapşırıq verib ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar. Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürünü bildirib, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

***

Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhəri ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə isə artilleriya zərbələri endirilib, yaralananlar var.

# Tarixi məqam və zərurət...

## Qərbi Azərbaycan mühacir hökuməti yaradılmalıdır!

Artıq zamanında Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımızın illər boyunca çəkdikləri torpaq həsrətinə son qoyulmasının, onların doğma yurd yerlərinə qayıdış hüquqlarının təmin edilməsinin vaxtı çatıb. Xüsusilə də 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra bu məsələ daha da aktuallaşıb. Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasından sonra Qərbi azərbaycanlıların geri dönüşü xalqımızı səfərbər edən növbəti ümummilli ideyaya çevrilib. Bu ümummilli ideyanın müəllifi Prezident İlham Əliyevdir. Soydaşlarımızın yurd yerlərinə qayıdışına dərin inamını ifadə edən dövlətimizin başçısı "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar", - deyə vurğulayıb.

Hazırda Qərbi Azərbaycan İcması (QAİ) soydaşlarımızın qayıdış hüququnun təmin olunması istiqamətində fəal iş aparır. QAİ-nin çalışmaları sayəsində 200 il ərzində ermənilər tərəfindən doğma ocaqlarından qovulmuş, artıq geriyə qayıda bilmək ümidini itirməkdə olan qaçqınlarda inam yaradılıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycanın 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Eyni zamanda, məsələ beynəlxalq gündəliyə çıxarılıb. İcmanın yaydığı bir sıra sənədlər BMT-nin rəsmi sənədləri qismində yayılıb. Növbəti mərhələdə isə qarşıda duran əsas vəzifələrdən biri Qərbi Azərbaycan mühacir hökumətinin yaradılmasıdır.

### Böyük bir icmanın beynəlxalq prinsiplərə əsaslanan qayıdış hüququ

Qərbi Azərbaycan icması sıralarında yüz minlərlə insanı birləşdirən böyük bir toplumdur. Ötən əsrin 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərində xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Təkcə sonuncu deportasiya zamanı 3 il ərzində 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib.

Belə bir böyük toplumun yurd yerlərinə ləyaqətli qayıdış hüquqları təmin olunmalıdır. Soydaşlarımızın istəyi sırf beynəlxalq prinsiplərə əsaslanır. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır.

### Qərbi Azərbaycan mühacir hökumətinin yaradılmasını şərtləndirən amillər

İndiki məqamda Qərbi Azərbaycan mühacir hökumətinin yaranması vazkeçilməz zərurətə çevrilib. Burada iki mühüm məqama diqqət çəkmək istərdik.

Birinci məqam lokal xarakterli antiterror tədbirlərindən sonra ərazilərimizdən qaçaraq Ermənistana gedən separatçıların tör-töküntülərinin, o cümlədən də özünü buraxan qondarma qurumun sonuncu "rəhbəri" S.Şahramanyanın son vaxtlarda İrəvanda yenidən fəallaşmaları ilə bağlıdır. Separatçıların İrəvanda fəallaşmalarına, burada tədbirlər keçirmələrinə və həmin tədbirlərdə Azərbaycana qarşı çağırışlar edilməsinə Ermənistanın müxtəlif dövlət qurumlarının seyirçi münasibət bəsləmələrindən o qənaət hasil olur ki, belə qərəzli fəaliyyətlərə məhz siyasi hakimiyyət rəvac verir. Bu, bir daha təsdiqləyir ki, N.Paşinyan və onun komandası səmimilikdən çox uzaqdır. QAİ-nin yaydığı müvafiq bəyanatda vurğulanıb ki, Qərbi Azərbaycan İcması son vaxtlar bir neçə dəfə Ermənistan hökumətindən öz ərazisində Azərbaycanın suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyətinə son qoyulması ilə bağlı çağırış edib. Görünən odur ki, Ermənistan hökuməti nəinki bu addımı atmır, əksinə, üzdə sülhdən danışaraq kənarda anti-Azərbaycan addımlara rəvac verir.

Paralel şəkildə Ermənistanda revanşizmi alovlandıran, İrəvanı yeni müharibəyə təhrik edən xaricdəki qüvvələr də separatçılara "beynəlxalq" dəstək nümayiş etdirirlər. Fransadan, Avropa Şurası Parlament Assambleyasından gələn təəssübkeşlik bunun təsdiqidir. Ancaq nə Ermənistanın siyasi hakimiyyəti, nə də Qarabağdan könüllü şəkildə köç edən ermənilərin "acınacaqlı" vəziyyətinə dəsmal götürüb göz yaşları axıdan xarici qüvvələr silsilə deportasiyalara məruz qalmış azərbaycanlıların geriyə qayıdış hüququndan bir kəlmə də olsun danışmaq istəmirlər. Haradadır ədalət? Haradadır beynəlxalq hüquq?

İkinci məqam isə Ermənistan hakimiyyətinin irqçi yanaşma sərgiləməsi ilə bağlıdır. Son olaraq Qərbi azərbaycanlılar mövzusunda Ermənistan parlamentinin spikeri Alen Simonyan danışıb. Simonyanın azərbaycanlıları "öz tarixi yurdlarını axtarmaq" adı ilə Altay dağlarına göndərmək barədə fikirlər ifadə etməsi Ermənistanın rəhbər dairələrində irqçilik və etnik müstəsnalıq ideologiyasının hakim olduğunu bir daha ortaya qoyur. Aydın şəkildə görünür ki, bu ölkənin hazırkı rəhbərliyi də mono-etnik dövlət qurmaq siyasətində sələflərinin yolu ilə gedir. Xatırlatmaq yerinə düşər ki, 27 sentyabr 2020-ci ildə Ermənistan tərəfi Azərbaycana qarşı müharibəyə başlayanda bu ölkənin ordusunun baş qərargah rəisi oxşar irqçi bəyanat verərək Ermənistanın hücumunun məqsədinin azərbaycanlıları Altay dağlarına göndərmək olduğunu bildirmişdi. Bunun Ermənistan üçün necə nəticələndiyi hamıya məlumdur. Simonyanın çıxışı sülh prosesini pozmaq və Ermənistandan qovulmuş azərbaycanlıların geri dönmək hüququna xələl gətirmək cəhdidir. Yeri gəlmişkən, QAİ bəyanat yayaraq Simonyanın ifadə etdiyi irqçi fikirlərə sərt münasibət bildirib. Sənəddə Ermənistan parlamentinin spikeri Alen Simonyanın öz yurdlarından qovulmuş Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri qayıtmaq hüququ ilə bağlı Azərbaycan tərəfinin bəyanatlarını təhrif etməsi və irqçi fikirlər səsləndirməsi qətiyyətlə pislənib. "Simonyanın çıxışı sülh prosesini pozmaq və Ermənistandan qovulmuş azərbaycanlıların geri dönmək hüququna xələl gətirmək cəhdidir. Qərbi Azərbaycan İcması olaraq, Ermənistandan bu cür irqçi ritorikalardan çəkinməyi və Qərbi azərbaycanlıların qayıdış hüququna hörmət etməyi tələb edirik", - deyə bəyanatda vurğulanır.




Bütün bunlardan çıxış edərək deyə bilərik ki, artıq mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin yaradılmasının vaxtı yetişib. Azərbaycanlıların öz doğma torpaqlarına qayıdışı məsələsinə daha sistemli yanaşma olmalıdır. Qərbi Azərbaycandan olan, qaçqın həyatı yaşamış, hətta körpə ikən Qərbi Azərbaycandan valideyinləri ilə çıxmağa məcbur edilmiş deputatlar var ki, onlar daha fəal olmalıdırlar. Parlamentdə bununla bağlı xüsusi komissiyanın yaradılması məsələsinə də baxılsa, yaxşı olar. Bu məqamda vurğulamaq yerinə düşər ki, artıq Qərbi Azərbaycan İcması mühacirət hökumətinin qurulmasının anonsunu verib. "Qərbi Azərbaycan İcmasının Ermənistanın suverenliyini və ərazi bütövlüyünü təhdid etmədiyi halda, özünü "mühacirətdə olan hökumət" kimi qələmə verən qondarma rejimin tör-töküntülərinin, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi "repatriasiya komissiyası"nın Ermənistanda belə rahat fəaliyyət göstərməsi qəbuledilməzdir. Bəyan edirik ki, Ermənistan bu təhlükəli siyasətdən əl çəkməsə, onda biz Azərbaycan Respublikasında mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin təsis edilməsi istiqamətində işlərə başlayacaq və bu xüsusda, ilk olaraq yeni seçilmiş parlamentdə "Qərbi Azərbaycana qayıdış" komissiyasının yaradılması məqsədilə Milli Məclisə müraciət ünvanlayacağıq", - deyə QAİ-nin yaydığı müvafiq bəyanatda bildirilib.

### Cəmiyyətdən mühacir hökumətinin yaradılmasına güclü dəstək

"Respondentlərin əksəriyyəti Qərbi azərbaycanlıların könüllü və ləyaqətli qaydada öz torpaqlarına qayıtması üçün Qərbi Azərbaycan mühacir hökumətinin yaradılmasını dəstəkləyir". Bu barədə Sosial Tədqiqatlar Mərkəzinin (STM) Qərbi Azərbaycan mühacir hökumətinin yaradılması barədə rəy sorğusunun nəticələrində qeyd edilib.

Belə ki, "Qərbi Azərbaycan mühacir hökumətinin yaranmasını dəstəkləyirsinizmi?" sualına respondentlərin 85,5%-i "bəli, dəstəkləyirəm", 4,4%-i "xeyr, dəstəkləmirəm" cavabını verib. Sorğuda iştirak edənlərin 10,1%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

"44 günlük Vətən müharibəsində əldə olunan qələbə son 30 illə yanaşı, bütün tarixi dövrlərdə köçə məcbur edilən soydaşlarımızın öz əcdadlarına, köklərinə, milli-dini varlığına, maddi və mədəni irsinə dönüş fürsəti yaradıb. Cəmiyyət soydaşlarımızın Qarabağa böyük qayıdış yolu ilə qayıtdığı kimi, 8 noyabr Zəfərinin bütün dövrlərin deportasiyalarına son qoyaraq Qərbi Azərbaycanlıların tarixi yurdlarına qayıdış yollarını da açacağına inanır", - deyə STM-in nəticələrində qeyd olunub.

Sorğular 2024-cü ilin 17-27 sentyabr tarixlərində, yaşı 18 və yuxarı olan 388 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib.

***Mübariz ABDULLAYEV***

# Litva Azərbaycana insan hüquqları mövzusunda nəyisə öyrətmək haqqına sahib deyil

Öz ərazisində milli azlıqların hüquqlarını kütləvi və sistemli şəkildə pozan, vətəndaşsızlıq hallarına səbəb olan Litva Azərbaycana insan hüquqları mövzusunda nəyisə öyrətmək haqqına sahib deyil.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında vurğulanır.

Sənəddə deyilir: "Litvanın xarici işlər naziri Qabrieulius Landsberqis Avropa Şurasının Parlament Assambleyasında bir sıra anti-Azərbaycan fikirlər səsləndirmişdir.

Litvanın xüsusən Vətən müharibəsindən sonra sistemli xarakter almış anti-Azərbaycan fəaliyyəti ikrah doğurur. "Lazım bildiyim anda Azərbaycanda sui-istifadə halları ilə bağlı açıqlamalar verəcəm" kimi şit və təkəbbürlü bəyanatlarla Litva naziri özünü və ölkəsini gülünc vəziyyətə salır. Təəssüf ki, bu gün Qərbdə Azərbaycanofobiya mərəzinə yoluxmuş, danışdığı sözün mahiyyətini dərk etməyən, iddiası ilə imkanları tərs mütənasib olan, dövlətçilik təfəkküründən uzaq çoxlu sayda qeyri-ciddi, diletant siyasətçi var.

Öz ərazisində milli azlıqların hüquqlarını kütləvi və sistemli şəkildə pozan, vətəndaşsızlıq hallarına səbəb olan Litva Azərbaycana insan hüquqları mövzusunda nəyisə öyrətmək haqqına sahib deyil. Litva qoy gedib müxtəlif xalqların harmoniya içində yaşamasını Azərbaycandan öyrənsin. Litva Fransa, Niderland, Kanada ilə birlikdə Azərbaycana "öyüd-nəsihət verə bilən" axırıncı ölkələrdəndir.

Reç Pospolitanın xiffətini çəkən litvalı nazir müstəqilliyini birinci olaraq tanıdıqları Ermənistan rəsmilərinin ən azı sözdə ifadə etdikləri "mifik Ermənistan"dan "real Ermənistan"a keçid niyyəti kimi "real Litva"ya keçməlidir.

Q.Landsberqisin qayıdış hüququnu yalnız etnik ermənilərə aid etməsi, Ermənistanın etnik təmizləməsinə məruz qalmış bir milyondan artıq azərbaycanlıya, o cümlədən qərbi azərbaycanlılara qarşı ayrı-seçkiliyin, qərəzin, onun səlibçi təfəkkürünün göstəricisidir.

Avropa Şurası Parlament Assambleyasının bir ovuc rasist və korrupsioner üzvünün Azərbaycana girişinə icazə verilməməsi məsələsinə gəldikdə, vurğulamaq lazımdır ki, suveren bir dövlət kimi onlara giriş qadağası qoymaq tamamilə Azərbaycanın haqqıdır. Litvalı nazirin bununla bağlı da açıqlamaları lüzumsuzdur. Həmin addım Azərbaycana və Azərbaycan xalqına qarşı etnik və dini ayrı-seçkiliyin ifşa edilməsinə və insan hüquqlarının təşviqinə xidmət edir".

# Hədəf korrupsiyasız həyatdır!

## Komissiyanın hüquqları artırılır...

## Dövlətin və cəmiyyətin inkişafına mane olan neqativ amillərə qarşı mübarizə gücləndirilir

**Hüquqi dövlət quruculuğu istiqamətində davamlı və effektiv fəaliyyət nümayiş etdirən Azərbaycan müasir çağırışları özündə əks etdirən addımlar atır. Qeyd olunmalıdır ki, korrupsiyaya qarşı mübarizə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edilib. Ölkənin inkişafını, sosial rifahın artmasını və beynəlxalq aləmdəki nüfuzunun yüksəlməsini, paralel olaraq Cənubi Qafqazın aparıcı siyasi aktoruna çevrilməsini təmin edən uğurlu dövlət siyasətinin ən mühüm ştrixlərindən sayılan korrupsiyaya qarşı mübarizə bütövlükdə cəmiyyətdə və dövlətdə şəffaflığın təmininə xidmət göstərir. Strategiyanın məqsədi yalnız cinayətkar fəaliyyətlərin qarşısını almaq deyil, həm də ictimai həyatın bütün sahələrində şəffaflığı təmin etməkdir. Bununla dövlətin və cəmiyyətin inkişafına mane olan neqativ amillərin aradan qaldırılması hədəflənir.**

### Şəffaflığın təmini istiqamətində addımlar atılır...

Vurğulanmalıdır ki, Azərbaycan hökuməti korrupsiyaya qarşı mübarizə çərçivəsində çoxsaylı tədbirlər həyata keçirib - ölkədə elektron hökumət sistemlərinin genişlənməsi bu mübarizənin əsas elementlərindən biri sayılır. Xidmətlərin elektronlaşdırılması və rəqəmsallaşdırılması vasitəsilə dövlət orqanları ilə vətəndaşlar arasında əlaqə şəffaflaşdırılıb, aradakı vasitəçilik halları minimuma endirilib. Məsələn, “ASAN xidmət” modeli vətəndaşların dövlət xidmətlərindən daha sürətli və şəffaf şəkildə faydalanmasına imkan yaradır. Bu xidmətin tərkibində göstərilən çoxsaylı elektron xidmətlər korrupsiya risklərini ciddi şəkildə azaldır.

Daha bir mühüm addım kimi, maliyyə nəzarətinin və dövlət satınalmalarının şəffaflığının artırılması istiqamətində tədbirlər diqqət çəkir. Bu sahədə dövlət büdcəsi və ictimai vəsaitlərin istifadəsinə nəzarət edən yeni mexanizmlər tətbiq olunub. Bütün bu tədbirlər korrupsiya risklərinin qarşısının alınması üçün əhəmiyyətli rol oynayır və idarəetmədə şəffaflığı artırır.

Qeyd edək ki, korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi işi də mütəmadi şəkildə diqqətdə saxlanılır - çünki bu qlobal bəlaya qarşı mübarizənin hüquqi çərçivəsinin təkmilləşdirilməsi prosesin mərkəzində dayanır. Azərbaycan Respublikasında qəbul edilən “Korrupsiyaya Qarşı Mübarizə haqqında” Qanun və onun tətbiqi üzrə yaradılan dövlət strukturları bu sahədəki əsas hüquqi alətlərdir. Bu qanun, korrupsiyanın önlənməsi və cəzalandırılması üçün hüquqi baza təşkil edir. Bundan başqa, ölkədə korrupsiyaya qarşı mübarizə üzrə yeni komissiyalar və müstəqil nəzarət strukturları yaradılıb.

Korrupsiyaya qarşı mübarizə uzunmüddətli dövlət strategiyasının aparıcı ünsürlərindən sayılır - korrupsiya dövlət idarəçiliyində şəffaflığa zərbə vurmaqla, iqtisadi inkişafı əngəlləyən və sosial bərabərsizliyi dərinləşdirən bir amilə çevrilməklə yanaşı, cəmiyyətdə qarşılıqlı etimadın aradan qalxmasına, inamın sarsılmasına yol aça bilər. Bu təhlükənin qarşısını almaq üçün isə korrupsiyaya qarşı ardıcıl mübarizə tədbirləri həyata keçirilməlidir və keçirilir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının hüquqları artırılır. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bir neçə gün öncə keçirilən iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” qanuna təklif olunan dəyişiklikdə əksini tapıb. Komissiyanın hüquqları sırasına dövlət orqanlarında və digər qurumlarda aparılan korrupsiya risklərinin qiymətləndirilməsini təhlil etmək və nəticələrinə uyğun olaraq tövsiyələr vermək, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər və korrupsiya risklərinin qiymətləndirilməsinin nəticələri barədə ictimaiyyətə məlumat vermək daxil edilib. Qeyd edək ki, Komissiyanın üzvü Komissiyadakı vəzifələrin icrası ilə maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda həmin maraqlar barəsində Komissiyanın sədrinə məlumat verməli və Komissiya üzvlərinin rəyi öyrənilməlidir. Komissiyanın üzvü Komissiya sədrinin və Komissiyanın digər üzvlərinin rəyinə uyğun olaraq, onun marağının yarandığı məsələ ilə bağlı çıxış etməməli və səsvermədə iştirak etməməlidir. Komissiya ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir. Eyni zamanda, Komissiya korrupsiyaya qarşı mübarizə sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üzrə işin təşkili və birgə tədbirlərin həyata keçirilməsi, sahə üzrə tədqiqat, təhlil materiallarının hazırlanması,

### Qanuna təklif olunan dəyişikliyə əsasən...

dövlət proqramlarının monitorinqi və qiymətləndirilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində müvafiq tədbirlərin yerinə yetirilməsi, habelə maarifləndirmənin həyata keçirilməsi üçün dövlət orqanlarının (qurumlarının) müvafiq sahə üzrə nümayəndələrindən ibarət işçi qruplar yarada bilər. İşçi qrupların tərkibinə müvafiq sahələr üzrə qeyri-hökumət təşkilatları, media subyektləri və özəl sektorun nümayəndələri, müstəqil ekspertlər daxil edilə bilər. İşçi qrupların hazırladığı sənədlər Komissiyanın iclasına çıxarıla və müvafiq qərarlar qəbul edilə bilər.



### Cəmiyyət fəal rol oynamalıdır

Bəli, Azərbaycanın strateji hədəfi korrupsiyaya qarşı mübarizəni davamlı edərək, cəmiyyətdə korrupsiyasız həyat tərzini təmin etməkdir. Bu hədəf cəmiyyətin hər sahəsində - təhsil, səhiyyə, məhkəmə sistemi və digər dövlət xidmətlərində korrupsiya risklərinin tamamilə aradan qaldırılmasını nəzərdə tutur. Şəffaflıq prinsiplərinin gücləndirilməsi və ictimai nəzarətin artırılması yolu ilə bu məqsədə nail olmaq mümkündür. Korrupsiyaya qarşı mübarizə sadəcə cəzalandırma ilə məhdudlaşmamalı - onun qarşısını almağa yönəlmiş maarifləndirici tədbirlər də paralel aparılmalıdır. Bu çərçivədə korrupsiyaya qarşı sosial kampaniyaların həyata keçirilməsi, vətəndaşların məlumatlandırılması və məmur-vətəndaş münasibətlərində şəffaflığın gücləndirilməsi diqqət mərkəzindədir. Cəmiyyətin bütün təbəqələri - vətəndaş cəmiyyəti, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları və iş dünyası bu mübarizədə fəal rol oynamalıdır. Vətəndaşların bu prosesdə iştirak etməsi, təhlükənin qarşısını almaq üçün çalışması mübarizənin effektivliyini artırır.

Qeyd edək ki, korrupsiyaya qarşı mübarizə sahəsində mühüm qanuni aktların qəbul olunması ilə yanaşı, ölkəmiz həm də bu sahədə beynəlxalq aləmlə də yaxından tərəfdaşlıq edir. Prezident İlham Əliyevin 4 aprel 2022-ci il tarixində imzaladığı müvafiq sərəncamla “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” təsdiqlənib. Bu sənədin təsdiqlənməsi Azərbaycanın özünün inkişafının indiki mərhələsində korrupsiyaya qarşı mübarizəyə yeni baxışını və niyyətini ifadə edir. Sənəddə vurğulandığı kimi, korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlər isə məhz bu inkişafın başlıca amilləridir. Milli Fəaliyyət Planı ölkəmizin hazırkı inkişaf mərhələsində korrupsiyaya qarşı mübarizə sahəsində görülməli olan sistem xarakterli tədbirlərin effektivliyini və davamlılığını təmin edəcək fundamental bir sənəddir. Burada respublikamızın hazırkı inkişaf mərhələsinin reallıqları əsas götürülməklə qabaqcıl dünya təcrübəsi nəzərə alınıb. Sənəddə qeyd olunur: “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illəri əhatə edən bu çoxşaxəli Milli Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə

### Mübarizə ilə bağlı qanunverici aktlar, beynəlxalq tərəfdaşlıq...

gerçəkləşdirilməsinə imkan yaradır”.

Paralel olaraq “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”i arasında da korrupsiyaya qarşı mübarizə məsələsi xüsusi yer tutur.  Milli Prioritetlərin birinci - “Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat” müddəasında göstərilir ki, kölgə iqtisadiyyatı minimuma endirilməli, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsi ən yüksək standartlara çatdırılmalıdır. İqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqi genişləndirilməli və təşviq olunmalı, korrupsiya ilə mübarizə gücləndirilməli, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikası formalaşmalıdır.

Beynəlxalq tərəfdaşlığa gəldikdə isə, Azərəbaycan Beynəlxalq Anti-Korrupsiya Təşkilatı ilə əməkdaşlıq edir. eyni zamanda ölkəmiz BMT-nin Korrupsiyaya Qarşı Konvensiyasını imzalayıb. Beləliklə, Azərbaycanda korrupsiyaya qarşı mübarizə istiqamətində atılan addımlar, qanunverici aktlar, fəaliyyət proqramları və beynəlxalq əməkdaşlıqlar, dövlətin bu sahədə ciddi yanaşmasını göstərir. Dövlət, korrupsiyanın qarşısını almaq üçün müvafiq hüquqi çərçivələr yaradıb və beynəlxalq təcrübədən faydalanır.

*P.SADAYOĞLU*

# bp-nin azad ərazilərdə ilk sərmayəsi

## Cəbrayılda inşa ediləcək “Şəfəq” günəş stansiyası “yaşıl sərmayələr”də yeni əməkdaşlığın uğurlu nümunəsidir

**Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və bp arasında uzun illərdir ki, davam edən qarşılıqlı və səmərəli əməkdaşlığın mühüm nəticəsi olaraq oktyabrın 2-də Cəbrayıl rayonunda “Şəfəq” layihəsinin icrasına dair saziş imzalanıb. bp şirkəti ilə SOCAR-a məxsus “SOCAR Green” MMC və “Azərbaycan İnvestisiya Şirkəti” ASC arasında imzalanmış Birgə İştirak Müqaviləsinə əsasən, Cəbrayılda 240 MVt-lıq “Şəfəq” Günəş Elektrik Stansiyası (GES) inşa ediləcək. Layihə çərçivəsində “Virtual Enerjinin Ötürmə Mexanizmi” adlanan yeni kommersiya modelindən ilk dəfə istifadə olunacaq ki, bu da günəş enerjisi istehsalına və əldə olunan enerjinin “AzərEnerji” ASC vasitəsilə milli elektrik şəbəkəsinə ötürülməsinə imkan verəcək. Bu saziş bp şirkətinin azad edilmiş ərazilərdə aparılan iqtisadi proseslərə qoşularaq töhfə verməsi və azad ərazilərin yeni iqtisadi potensialının üzə çıxmasında dəstəyi hesab edilə bilər. Bu baxımdan Azərbaycan hökuməti ilə bp arasında bu əməkdaşlıq gələcəkdə uğurlu layihələrdə eyni niyyətlərini də ifadə etmiş olur.**

### Qarabağ və Şərqi-Zəngəzurda sərmayələr üçün açar sazişi

“Şəfəq” layihəsi ilk olaraq Cəbrayıl rayonunun iqtisadi inkişafında da mühüm mərhələ açacaq.  Bu rayonun və bölgənin günəş enerjisi potensialından istifadə etməklə Şərqi Zəngəzurun enerji təminatının gücləndirilməsinə, Xəzər dənizi və Səngəçal terminalında karbon emissiyalarının azaldılmasına töhfə verəcək.

Cəbrayıl rayonunda istehsal edilən günəş enerjisinin ölkənin elektrik enerjisi şəbəkəsinin operatoru olan “Azərenerji”yə həmin yerdə çatdırılmasını, “Azərenerji”nin isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına verməsini təmin edəcək. Bu da öz növbəsində terminalın həmin bərpa olunan elektrik enerjisindən öz ehtiyacı üçün istifadə etməsinə imkan verəcək.

“Şəfəq” layihəsi, eyni zamanda işğaldan azad edilmiş ərazilərin iqtisadi və “yaşıl enerji” potensialının reallaşdırılması üçün həyata keçirilən təşəbbüslərin real nəticəsi hesab oluna bilər. Layihə Azərbaycanın bərpaolunan enerji potensialının inkişafında mühüm rol oynamaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində görülən genişmiqyaslı işlərə mühüm töhfə verəcək. Qeyd edək ki, Azərbaycanın “yaşıl enerji” strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur.

Mövcud dəyərləndirmələr göstərir ki, Qarabağ və Şərqi-Zəngəzurda bərpa olunan enerji potensialına görə, digər bölgələrdən qat-qat zəngindir. Bu bölgə hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələrinə görə, ölkə üzrə resursların 30-40 faizinə malikdir. Həmin iqtisadi rayonlardan Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisinə görə, ən əlverişli potensiala malikdir və enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir.

Cəbrayılda 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisinə start verilməklə ilk elektrik stansiyası istismara cəlb ediləcək. Bundan başqa, Aİ-nin “Nobel Energy” şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzi yaradılacaq. Laçın və Kəlbəcərin dağlıq ərazilərində həcmi 2000 Mvt proqnozlaşdırılan külək enerjisi stansiyası layihəsi reallaşmaqdadır.

### SOCAR-ın digər xarici investorlarla “yaşıl sərmayə” planları...

“Şəfəq” layihəsi açar sazişi hesab edilməklə, bu bölgədə “yaşıl enerji”yə xarici investorların cəlb edilməsinin bünövrəsi kimi dəyərləndirilməlidir. Bundan sonra investorların Qarabağ və Şərqi-Zəngəzura axını daha da stimullaşacaq. Hazırda dünyanın ən nəhəng enerji şirkətləri də Azərbaycanda “yaşıl enerji” sektoruna, o cümlədən azad ərazilərə sərmayə planlarını bəyan edib. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) “Masdar” şirkəti ilə 3 ay əvvəl imzalanmış müqavilələrə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası və Qaradağda 240 MVt gücündə bir külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Ümumi sərmayə dəyəri 1 milyard dollar məbləğində qiymətləndirilən 3 layihənin təməlinin atılması bərpa olunan enerji sektorunda böyük sərmayə bumunun nümunəsi hesab edilə bilər. BƏƏ şirkəti azad ərazilərdə də eyni hidrogen infrastrukturları qurmağı planlaşdırır.

Məsələ ondadır ki, bu prosesdıə də SOCAR əsas investorlardan biri kimi təmsil olunur. SOCAR və “Masdar” şirkəti arasında günəş və külək enerjisinin istifadəsi ilə bağlı imzalanan sazişlər Azərbaycanın enerji keçidində mühüm mərhələnin irəlilədiyini göstərir. Eyni zamanda, quruda və dənizdə “yaşıl enerji” layihələrinin icrasında xüsusi ixtisaslaşmış “Masdar” şirkətinin bu investisiya niyyəti ölkəmizin




“yaşıl enerji”yə keçid strategiyasına verdiyi dərin dəstəyin nümunəsi hesab edilə bilər.

Həmçinin, Azərbaycan “Masdar”, “ACWA Power”, “BP”, “Fortescue Future Industries”, “China Gezhouba Group”,”Total Energies”, “Nobel Energy”, “Czech Engineering”, “Baltech” və digər şirkətlərlə sazişlər də imzalayıb. İmzalanmış müqavilələrə əsasən, “yaşlı enerji” ilə bağlı əməkdaşlığa başlanılıb. Bu əməkdaşlıq sazişlərinin icrası çərçivəsində inşa olunan bərpa olunan enerjinin illik istehsalı yaxın 2 ildə 2 QVt-a, 5-6 il ərzində isə 4-5 QVt-a çatmış olacaq.

Əldə edilən “yaşıl enerji”nin böyük bir hissəsi daxili ehtiyacların ödənilməsinə yönəldildikdən sonra, qalan hissəsi xaricə ixrac olunacaq. Bu məqsədlə hazırda “Xəzər-Qara dəniz-Avropa” “yaşıl dəhlizi” yaradılır.

### Azərbaycan Cənubi Qafqazın “yaşıl enerji” mərkəzinə çevrilir

Azərbaycan 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə “xalis sıfır emissiya” zonası yaradılması niyyətini bəyan edib. Həmin məqsəd və prioritetlərə uyğun olaraq bu bölgədə yaxın 20 ildə alternativ enerji bloklarının tam hərəkətə gətirilməsi nəzərdə tutulur. Bu baxımdan bp, “Masdar” və dünyanın digər iri investorları ilə azad edilmiş ərazilərdəki təmiz enerji mənbələrinin istismarına dair layihələrin icrası nəzərdə tutulan hədəf göstəricilərinə daha tez nail olmaq mümkündür.

Beləliklə, “Şəfəq” layihəsi azad edilmiş ərazilərə birbaşa xarici investisiyaların cəlb edilməsi sayəsində ölkəmizin “yaşıl keçid” siyasətinə uyğun hədəflərinin dəstəklənməsinə də güclü zəmin yaradacaq, Azərbaycan Cənubi Qafqazın yeni enerji gücünün mərkəzi kimi “yaşıl sərmayələrə” açıq və ixracatçı ölkəyə çevriləcək.

*E.CƏFƏRLİ*

# “Yaşıl tərəfdaşlıq” koalisiyasının etibarlı üzvü

**Azərbaycan hazırda “yaşıl həmrəylik” alyansında fəal ölkə kimi dünya birliyində öz təşəbbüskarlığı və səyləri ilə seçilməkdədir. Ölkəmizin beynəlxalq koalisiya ilə sıx əməkdaşlıq çərçivəsində qitələr arasında “yaşıl körpülər” qurmaq niyyətləri xarici nüfuzlu təşkilatlar tərəfindən də etiraf olunur. Bu günlərdə Braziliyada enerji ilə bağlı təşkil edilən beynəlxalq tədbirə qatılan Azərbaycanın energetika naziri Pərviz Şahbazovun xarici nümayəndə heyətləri ilə keçirdiyi görüşlərdə ölkəmizin “yaşıl enerji” sahəsində fəallığı bir daha yüksək dəyərləndirilib.**

## Azərbaycanın COP29 təşəbbüsləri xarici ölkələrlə əlaqələrində yeni imkanlar açmaqdadır

### Avropa İttifaqının enerji təhlükəsizliyində yeni layihə...

Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simsonla görüşdə Azərbaycanın etibarlı tərəfdaş kimi Aİ-nin enerji təchizatında layiqli missiya yürütməsi, eləcə də “yaşıl enerji” tərəfdaşlığı və COP29 çərçivəsində davamlı fəaliyyəti təqdir edilib. Bildirilib ki, ölkəmizin COP29-a Sədrliyi dövründə indiyədək irəli sürdüyü 14 təşəbbüsün 3-ü enerji sahəsini əhatə edir ki, bu da Aİ-nin enerji təhlükəsizliyi məsələlərinə xidmət edən strateji hədəflərlə üst-üstə düşür. Respublikamızın iqtisadi gündəliyində əsas yer tutan bərpa olunan enerji strategiyasına keçid üzrə icra edilən tədbirlər isə Aİ-Azərbaycan iqtisadi əlaqələrinin yeni səhifəsi deməkdir.

Azərbaycan strateji infrastrukturlarını müasirləşdirərək “yaşıl enerji” kabelinin əsas coğrafiyası kimi yenə də Avropa ölkələri arasında xüsusi yer tutur. Son 2 ildə Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətlə “yaşıl enerji” sahəsində əməkdaşlığa dair sənədlər imzalayıb. Bu strateji kursun əsas prioriteti “yaşıl enerji”nin Avropa regionuna nəqlini nəzərdə tutan “Xəzər-Qara dəniz-Avropa” dəhlizinin yaradılmasıdır ki, ölkəmiz bu platformada da fəal mövqeyi ilə seçilir. Azərbaycanın energetika naziri Braziliyada bu mövzu ilə bağlı Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Gürcüstan, Ruminiya, Macarıstan, Bolqarıstanın, eləcə də layihədə iştirak edən şirkətlər və maliyyə institutları ilə fikir mübadiləsi aparıb. Layihənin Mərkəzi Asiya ölkələrinin qoşulmaqla genişləndirilməsi istiqamətində atılan addımlar bütün iştirakçı ölkələr və qurumlar tərəfindən müsbət qiymətləndirilib.



### Ortaq Maraqlar Layihəsi

Aİ cari ilin noyabr ayında “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” üzrə keçiriləcək yüksək səviyyəli tədbiri dəstəklədiyini və layihənin texniki-iqtisadi əsaslandırması üzrə əlavə tədbirlərə zəruri köməkliklər edəcəyini bildirib. Həmçinin, Naxçıvan üzərindən Türkiyə vasitəsilə Avropaya “yaşıl enerji” infrastrukturunun qurulması da təqdir olunub və layihənin bu xəttinin Avropada elektrik enerjisinə gözlənilən artım tələbatları fonunda daha rentabelli və dayanıqlı enerji gücləri formalaşdıracağına əminlik ifadə olunub. “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin növbəti fazasına digər tərəflərin də qoşulacağı və iştirakçı ölkələrin öz yeni enerji xətləri və infrastrukturlarını vahid şəbəkədə əlaqələndirməsindən sonra layihənin nəhəng “yaşıl PMI” (Ortaq Maraqlar Layihəsi) statusu alacağı gözlənilir. Beləliklə, Xəzər dənizindən Qara dənizə, oradan da Avropaya doğru gedən “yaşıl kabel” Avropa ilə Asiyaya “yaşıl körpü”nün ən rentabelli xətti olacaq.

Ssenariyə əsasən, Azərbaycan “yaşıl kabel” vasitəsilə 2027-ci ilin sonuna qədər 2000 meqavat enerji ixrac edəcək. Ümumilikdə, Azərbaycan 2030-cu ilə qədər hazırda inşa olunan 9 stansiyadan əlavə 10 günəş və külək enerjisi stansiyaları da quracaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bütün yaşıl gücləri nəzərə alsaq, Azərbaycan, ən azı 157 qiqavat potensialla bazara daxil olacaq. Bu potensialdan istifadə edərək, ölkəmiz həm daxili qaz istehlakını elektrik enerjisi istehsalı ilə əvəzləyəcək, həm də Avropanın ənənəvi qazdan yaşıl enerjiyə keçidinin əsas təminatçılarından biri olacaq.



### Böyük Britaniyanın ölkəmizə dəstəyi..

Aİ ilə yanaşı, Böyük Britaniya da Azərbaycanın “yaşıl tərəfdaşlıq” koalisiyasındakı çevik addımlarını dəstəkləyir. Azərbaycanın 1994-cü ildə əsasını qoyduğu yeni enerji diplomatiyasında yer alan və Şərq-Qərb enerji dəhlizlərinin formalaşmasında aparıcı tərəfdaşlarından biri olan Britaniya BTC, TANAP, TAP kəmərlərini enerji həmrəyliyi dəhlizləri kimi dəyərləndirir. Hazırda Azərbaycanın enerji siyasətində əsas yer tutan “yaşıl hidrogen” və təmiz ekoloji mühit platforması da Londonun məqsəd və məramları ilə üst-üstə düşür. Həmçinin, Azərbaycanın yaşıl enerji üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Böyük Britaniyanın enerji konsepsiyasına və maraqlarına uyğundur. Bütün bunlar onu göstərir ki, Britaniyanın da “yaşıl enerji” proqramlarında Azərbaycanla birgə əməkdaşlığı üçün yeni fürsət və mühit formalaşıb. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Parlamentinin “Enerji Təhlükəsizliyi və Xalis Sıfır” departamentində dövlət katibinin müavini Keri Makkarti ilə Azərbaycanın energetika nazirinin Braziliyada keçirilən görüşündə də bu mövzuya toxunulub. London hökuməti ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli strateji tərəfdaşlığın “yaşıl enerji”, dekarbonizasiya istiqamətləri ilə şaxələnən inkişafı alqışlayaraq təmiz enerjiyə keçid sahəsində yeni əlaqələrin perspektivlərinin də ümidverici olduğunu xatırladıb.

Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi “yaşıl enerji zonası və dəhliz”lər, elektrik şəbəkələrinin gücləndirilməsi və enerji saxlama imkanlarının artırılması, hidrogenin inkişafı üzrə təşəbbüslərinə dəstəyini ifadə edən Böyük Britaniya potensial əməkdaşlıq imkanlarını artırmaq niyyətindədir.

***E.CƏFƏRLİ***

# Afrikada Fransanın neokolonializm siyasəti...

## Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib

Oktyabrın 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Afrikada Fransanın neokolonializm siyasətinə həsr edilmiş beynəlxalq konfrans keçirilib. Konfransda Afrikanın Seneqal, Burkina Faso, Kamerun, Qvineya-Bisau, Konqo Demokratik Respublika, Mavritaniya, Zimbabve, Niger, Fransa və Fransanın əsarəti altında olan Mayot adasının nümayəndələri iştirak ediblər.

Konfransda Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, qrupun fəaliyyəti həm keçmiş, həm də indiki koloniyalar tərəfindən yüksək qiymətləndirilir. Onun sözlərinə görə, Bakı Təşəbbüs Qrupu keçmiş müstəmləkələrlə əməkdaşlığa bir neçə ay əvvəl başlayıb: “Biz hazırda müstəmləkə siyasətindən əziyyət çəkən regionlarla sıx əməkdaşlıq edirik, orada fəaliyyət göstərən fərqli siyasi partiyalar, QHT-lərlə memorandumlar imzalayırıq. Gələcəkdə Afrikada fəaliyyət göstərən həm beynəlxalq, həm də qeyri-hökumət təşkilatları ilə Bakı Təşəbbüs Qrupu olaraq sıx əməkdaşlıq etməyi düşünürük”.

A.Abbasov qeyd edib ki, Bakı Təşəbbüs Qrupu dünyada müstəmləkəçilik siyasətindən əziyyət çəkən regionlara beynəlxalq hüquq çərçivəsində öz dəstəyini göstərir: “Yeni Kaledoniyada fəaliyyət göstərən Kanakinin siyasi məhbuslara dəstək kollektivi təşkilatımıza xüsusi məktub ünvanlayıb. Məktubda əsassız həbs edilən şəxslərin ailələrinə Bakı Təşəbbüs Qrupu adından göstərilən dəstəyə görə təşəkkür ifadə olunub”.

Çıxış edən Milli Məclisin deputatı Nizami Səfərov bildirib ki, insanlıq əleyhinə cinayətlərin konsepsiyası məhz Afrikada hələ də izləri görünən Trans-Atlantik qul ticarəti ilə bağlıdır: “Bunun təsdiqini hələ XIX əsrdə dərc edilən və beynəlxalq hüquqa həsr olunmuş bir çox dərsliklərdə, ədəbiyyatlarda görmək olar. Tam məsuliyyətlə deyirəm: insanlıq əleyhinə cinayətlərin mənbəyi məhz quldarlıq, Afrikada baş verən qul ticarətidir. Şübhəsiz ki, Fransa bu cinayətin törədilməsində çox fəal rol oynayıb”.

Qul ticarətinə görə Fransa tərəfindən reparasiyaların ödənilməsinin ən mühüm məsələlərdən biri olduğunu qeyd edən deputat vurğulayıb: “1998-ci ildə Qayanadan olan deputat Kristian Tobira Fransa parlamentində çıxış edib və xüsusi qanun layihəsi təklif edib. Həmin qanun layihəsində iki məsələ öz əksini tapmalı idi: Fransanın daxili cinayət qanunvericiliyinə uyğun olaraq quldarlığın, qul ticarətinin insanlıq əleyhinə cinayət kimi tanınması və reparasiya məsələsi, ümumiyyətlə, beynəlxalq müstəvidə reparasiya və kompensasiya. Ancaq çox təəssüf ki, bu məsələ Afrika xalqlarına, Afrika dövlətlərinə münasibətdə qanun layihəsindən kənarda qaldı”.



Konfrans iştirakçısı, ictimai fəal Kemi Seba çıxışında deyib ki, “neoliberalizm” adı altında Qərb dəyərləri bir çox ölkələrə yeridilir. Lakin bu dəyərlər bir çox ölkədə müqavimətlə qarşılanır. Berlin divarının dağıdılmasından sonra Avropa dövlətləri Mali, Benin, Burkina-Faso və digər Afrika ölkələrini bir-birindən ayırmağa çalışdılar. Lakin indiki Afrika gəncləri bunu bilir və buna imkan vermirlər. O deyib: “Azərbaycan hazırda Fransa ilə gərginlik yaşayır. Siz nəzərə alın ki, biz 500 ildir bu ölkənin zülmündən əziyyət çəkirik. Bəzi şəxslər panafrikanizmlə bağlı böyük tədbirin Bakıda keçirilməsini təəccüblə qarşılayırlar. Lakin ümumi vəziyyətə nəzər yetirsək görərik ki, Azərbaycan Qoşulmama Hərəkatında fəal iştirak edir, deməli, kolonizasiyaya qarşı ən ciddi mübarizə aparanlar sırasındadır”.

Azərbaycanın Fransanın insan hüquqları ilə bağlı bəyanatlarından artıq təngə gəldiyini bildiklərini vurğulayan K.Seba qeyd edib: “Afrikalılara gəldikdə, insan hüquqları fransız oliqarxiyasının yadına düşmür. Rəsmi Parisin Qarabağla bağlı mövqeyi Afrika ölkələri, Qviana, Martinika və Qvadelupaya münasibəti ilə daban-dabana ziddir. Fransa Qarabağdan fərqli olaraq Reünyon və Yeni Kaledoniyada öz müqəddəratını təyinetmə məsələsindən danışmır”.

Malidən olan QHT rəhbəri Kabin Dumbia isə bildirib ki, iqtisadi müstəqilliyi əldə etmək üçün təbii resurslara tam sahib olmaq, istehsal zəncirini qurmaq, yerli istehsalı təşviq etmək zəruridir. Bunun üçün də elmi və texniki sahəyə çox ciddi investisiya qoyulmalıdır. Bütün Afrika ölkələri isə bu cəhətdən çətinliklə üzləşib. Diplomatik müstəqillik zəruridir. Diplomatik müstəqillik dedikdə xarici güclərin təzyiqini dəf etmək nəzərdə tutulur.

Onun sözlərinə görə, Afrika ölkələri yeni tərəfdaşlar axtaran zaman keçmiş müstəmləkəçi ölkələrlə ehtiyatla davranmağa məcburdur: “İqtisadi, diplomatik və hərbi təzyiqlər Afrika ölkələrinin dəf etməli olduğu çətinliklərdəndir. Bəzən xarici qüvvələr sülhü təmin etmək və ya terrorla mübarizə adı altında Afrika ölkələrinə müdaxilə edirlər”.

Konqo Kinşasa Dünyəvilik Evinin rəhbəri Dani Bos Sinqoma Kabaqambe çıxışında deyib ki, Konqo Demokratik Respublikası kolonializmə qarşı mübarizədə həlak olmuş Patris Lubumbanın vətəndir: “Neokolonializmlə mübarizə bütün bəşəriyyətin vəzifəsi olmalıdır. Suverenliyin çox böyük üstünlükləri var. Ölkənin suveren olması hökumətin müstəqil qərar qəbul etməsinə imkan verir. Bu zaman dövlət milli maraqlar çərçivəsində qərar qəbul edə bilir”. O qeyd edib ki, digər tərəfdən müstəqillik hökumətin milli səviyyədə məsuliyyətini artırır. Çünki qərarlar ümumi maraqlar xatirinə qəbul olunur.

Konfransda digər çıxış edənlər də Fransanın Afrikanın bəzi xalqlarına qarşı müstəmləkəçilik siyasətini pisləyiblər.

***Nardar BAYRAMLI***

# Ombudsman və insan hüquqları institutları...

## İqlim dəyişiklikləri ilə mübarizədə onların rolu önəmlidir

COP29 ərəfəsində ölkəmizdə müxtəlif tədbirlər keçirilir. Bu baxımdan, yerli tədbirlərlə yanaşı, beynəlxalq konfransların keçirilməsi də önəm daşıyır. Yeri gəlmişkən, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü və Azərbaycan dövlətinin dəstəyi ilə “İqlim dəyişikliyi və insan hüquqları: ombudsman və milli insan hüquqları institutlarının rolu” mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumu da qeyd edilən məsələ kontekstində əhəmiyyətlidir. Tədbir qlobal iqlim dəyişikliklərinin yaratdığı problemləri və onların həlli yollarını insan hüquqları perspektivindən müzakirə etmək, bu sahədə müsbət təcrübələri paylaşmaq məqsədilə təşkil edilib. Tədbirdə ədliyyə naziri Fərid Əhmədov Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib.



Forumda çıxış edən ombudsman Səbinə Əliyeva qlobal iqlim dəyişikliyinin ətraf mühitə, ölkələrin dayanıqlı inkişafına, eyni zamanda, insan hüquqlarının müdafiəsi və təmin edilməsinə bir sıra çətinliklər yaratdığını bildirib. Müvəkkil iqlim dəyişikliklərinin fəsadlarının yalnız bir ölkə və ya regionun ərazisi ilə məhdudlaşmadığını qeyd edərək, sağlam ətraf mühitdə yaşamaq hüququnun təmininə diqqətin artırılmasının vacibliyini vurğulayıb.

Ombudsman deyib ki, Prezident İlham Əliyevin insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə etdiyi çağırışlar və tövsiyələr ombudsmanın fəaliyyətinin əsas prioritet istiqamətlərindəndir. Onun sözlərinə görə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini həyata keçirərkən bu sahədə səlahiyyətli olan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları ilə sıx əməkdaşlıq edilir. Ombudsmanların Beynəlxalq Bakı Forumu kimi mötəbər tədbirdə Azərbaycan hakimiyyətinin hər üç qolunun yüksək səviyyədə təmsil olunması məhz birgə uğurlu əməkdaşlığın bariz göstəricisidir.

Torpaqlarımızın 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalına məruz qaldığını qeyd edən ombudsman işğal zamanı həmin ərazilərdə ətraf mühitə, bioloji müxtəlifliyə ciddi ziyan vurulduğunu, ekosid törədildiyini diqqətə çatdırıb. Müvəkkil ölkəmizdə müxtəlif nadir bitki və heyvan növlərinin məhv edildiyini, ərazilərimizdən keçən çayların zərərli maddələrlə kəskin çirkləndirildiyini və bunun əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə yaratdığını bildirib.

Ermənistanın işğal zamanı ərazilərimizdə həyata keçirdiyi mina terrorundan danışan ombudsman İkinci Qarabağ müharibəsindən bu vaxta qədər 380-ə yaxın şəxsin mina qurbanına çevrildiyini, basdırılmış minaların keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz qayıdışına, bölgədə aparılan bərpa-quruculuq işlərinə maneə törətdiyini, eləcə də mina partlayışlarının regionda ekoloji tarazlığın pozulması ilə nəticələndiyini söyləyib.

Səbinə Əliyeva Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn öhdəliklərə uyğun olaraq iqlim dəyişikliyinin mənfi təsirlərinə və bundan yaranan mümkün risklərə qarşı mübarizəyə xüsusi önəm verdiyini qeyd edib, son illər ölkəmizdə ətraf mühitin qorunması və iqlim dəyişikliyinin fəsadlarının qarşısının alınmasına xidmət edən kompleks tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev çıxışı zamanı iqlim dəyişikliyi və onun ətraf mühitə mənfi təsirlərinin dünyanı narahat edən əsas qlobal problemlərdən biri olduğunu bildirib. O, iqlim dəyişikliyinin bərabərsizliyi daha da dərinləşdirdiyini və xüsusilə həssas qruplara ciddi təsir göstərdiyini diqqətə çatdırıb.

BMT İnkişaf Proqramının (BMTİP) ölkəmizdəki rezident nümayəndəsi Alessandra Rokkasalvo forumun istər mövcud problemlərin həlli yollarının axtarılması, istərsə də gələcək liderlərin yetişdirilməsi baxımından mühüm platforma rolunu oynadığını qeyd edib. O, BMTİP və Ombudsman Aparatının birgə təşkilatçılığı ilə keçirilən “İqlim dəyişikliyi və insan hüquqları” tədqiqat müsabiqəsi barədə məlumat verərək iqlim fəaliyyətində gənclərin mərkəzi rol olmasının əhəmiyyətini vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyası Katibliyinin icraçı direktoru Noura Zaid Alrshoud çıxışı zamanı meşələrin qırılmasının, faydalı qazıntıların qeyri-qanuni istismarının, çayların çirkləndirilməsinin, minaların yerləşdirilməsinin ətraf mühitə ciddi ziyan vurduğunu qeyd edib, bu kimi halların beynəlxalq insan hüquqları və humanitar hüququn prinsiplərini ciddi şəkildə pozduğunu diqqətə çatdırıb. İcraçı direktor iqlim dəyişikliyi və onun nəticələrinin insan hüquqlarının səmərəli həyata keçirilməsinə mənfi təsir göstərdiyini qeyd edib.



Tədbirdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkün konfrans iştirakçılarına videomüraciəti də dinlənilib.

Tədbirdə Ombudsman və BMT-nin İnkişaf Proqramı tərəfindən tələbələr üçün elan edilmiş “İqlim dəyişikliyi və insan hüquqları” mövzusunda araşdırma-yazı müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Forumda “İqlim dəyişikliyi ilə mübarizəyə dair təşəbbüslərdə milli insan hüquqları təsisatları və ombudsman institutlarına dəstək strategiyaları”, “İqlim dəyişikliyi və onun təsirləri haqqında məlumata ictimai əlçatanlıq”, “İqlim dəyişikliyi ilə mübarizədə çoxtərəfli əməkdaşlıq”, “İqlim dəyişikliyinin müharibənin partlayıcı qalıqları və minalarla çirklənmə ilə əlaqəsi” və “İqlim dəyişikliyi kontekstində biznes hesabatlılığının təşviqi” mövzularında panel sessiyaları təşkil edilib.

Tədbirin yekununda Ombudsmanların Beynəlxalq Bakı Forumunun Bəyannaməsi səsləndirilib və qəbul olunub.

***NARDAR***

# Erməni cinayətlərini dünyaya tanıdaq...

## Gənclərimizin üzərinə hansı vəzifələr düşür?

2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarını erməni işğalından azad etmək üçün səfərbər oldu. Həmin gün səhər saatlarından Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutmuşdu. Beləliklə, ölkə başçısının müvafiq göstərişləri əsasında Ordumuzun bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verildi.

Məlumdur ki, Ermənistan tarixin müxtəlif dövrlərində daim mülki əhalini hədəf seçərək müxtəlif təxribatlara və hərbi təcavüzlərə əl atıb. Eyni davranış İkinci Qarabağ müharibəsi zamanı da təkrarlandı. Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. Ancaq 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etdi.

Əlbəttə ki, Vətən müharibəsini qalibiyyətlə başa vursaq da, erməni cinayətlərinin beynəlxalq müstəvidə ifşa olunması işi davam etdirilməlidir. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərlə yanaşı, Azərbaycan cəmiyyətinin, xüsusilə də gənclərin prosesdə fəal iştirakı vacibdir. Bu baxımdan, Azərbaycan gənclərinin üzərinə böyük vəzifələr düşür.

**Bütün gücümüzü səfərbər etməliyik...**

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a açıqlama verən “Gənclər Mərkəzi” İctimai Birliyinin sədri Kənan Qubadzadə bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı proseslərdə bütövlükdə cəmiyyətimiz önəmli rol oynadı. Vətəndaşlarımız reallıqları dünyaya çatdırmaqda, eləcə də informasiya mübarizəsində fəal iştirak edirlər. Onun sözlərinə görə, 30 illik işğal nəticəsində soydaşlarımız öz doğma torpaqlarından qaçqın və məcburi köçkün düşüb, ermənilər tərəfindən qətlə yetirilib, itkin düşüb, əsir götürülüblər və Azərbaycana məxsus mədəni irs erməni vandalları tərəfindən məhv edilib: “Tarix boyu ermənilərin torpaqlarımızda hansı vəhşiliklər törətdiyinin əyani şəkildə şahidi olmuşuq. Vətəndaş olaraq məqsədimiz bu istiqamətdə işlərimizi intensiv aparmaq və bütün gücümüzü səfərbər etməkdir”.

**Gənclərimiz vahid amal uğrunda birləşməlidirlər**

Ekspert bildirib ki, müasir gəncliyimiz öz bilik və bacarıqları ilə dövlətimizin inkişafına fayda verir: “Müxtəlif ölkələrdə yaşayan gənclərimiz şəbəkələşərək vahid amal uğrunda birləşməlidirlər. Çünki bu gün hər bir azərbaycanlı kimi gənclərin də qarşısında erməni vandalizminin nəticələrini dünyaya çatdırmaq vəzifəsi dayanır. Bu, çox məsuliyyətli vəzifədir. Azərbaycan gəncləri olaraq bu işin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Gənclərimiz bu istiqamətdə sosial şəbəkələrdə fəallıq göstərir, erməni vandalizminin maksimum dərəcədə dünya ictimaiyyətinə çatdırmağa səy göstərirlər. Azərbaycandan kənarda təhsil alan gənclərimiz də erməni vandalizminin ağır nəticələrinin xaricdə təbliğ olunması işində fəal iştirak edirlər. 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə də Azərbaycan gəncləri həm hərb meydanında, həm də informasiya məkanında aktiv mübarizə aparıblar. Şübhəsiz ki, bu proses davam etdirilməlidir”.

**Sistemli və ardıcıl fəaliyyət...**

K.Qubadzadə qeyd edib ki, informasiya müharibəsi davam edir: “Gənclərimiz Ermənistanın törətdiyi cinayətlərin dünyaya çatdırılması işində bundan sonra da fəal olmalıdırlar. Əsl həqiqətlərin dünyaya çatdırılması, gənclərin yerli və beynəlxalq platformalarda təmsil olunması üçün əlimizdən gələni etməliyik. Mənfur qonşularımızın beynəlxalq ictimai rəyi yanıltmaq cəhdlərinin qarşısını almaq üçün tariximizi daha yaxşı öyrənməli və öyrətməliyik. Bu gün gənclər müasir informasiya texnologiyalarından səmərəli və məqsədyönlü istifadə etmək üçün müasir biliklərə sahibdirlər. Düşünürəm ki, bu yöndə imkanlarımızı və bacarıqlarımızı daha da gücləndirməliyik. Çünki müasir dünyada yeni reallıqlarla ayaqlaşmaq, çağırışlara cavab vermək həm də milli maraqların qorunması üçün əlavə imkanlar yaradır. Bizim isə qarşımızda çox mühüm vəzifələr dayanır. Bu baxımdan, sistemli və ardıcıl fəaliyyət hər birimizin borcudur. Ona görə də öz vətəndaşlıq mövqeyimizi nümayiş etdirməliyik. Hesab edirəm ki, Azərbaycan gəncləri bu missiyanın öhdəsindən bundan sonra da gələcəklər”.

***Yeganə BAYRAMOVA***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır**

# Qərbə növbəti “zərbə”

## Gürcüstanda qəbul olunan yeni qanun LGBT təbliğatını qadağan edir...

Gürcüstanda “Xarici təsirin şəffaflığı haqqında” qanunla bağlı baş verənlər səngiməmiş yeni prosesə start verilib. Belə ki, Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili LGBT təbliğatını qadağan edən qanunu imzalayıb. Bu barədə Papuaşvilinin Facebook-da yerləşdirilən bəyanatında bildirilib. “Bu gün Gürcüstan Konstitusiyasına əsasən, Salome Zurabişvilinin imzalamaqdan imtina etdiyi “Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında” qanunu imzalayıram. İmzaladığım qanun indiki müvəqqəti, dəyişən ideyaları, ideologiyaları əks etdirmir. O, sağlam düşüncəyə, tarixi təcrübəyə və əsrlər boyu möhkəmlənən xristian, gürcü və Avropa dəyərlərinə əsaslanır”.

Papuaşvili prezidentin qanunu imzalamaqdan imtina etmək qərarını “simvolik” adlandırıb. Parlament sədrinin sözlərinə görə, ölkə başçısı qanunun Qərb tərəfdaşlarının qınağına səbəb olacağını yaxşı bilir. “Gürcülər heç vaxt başqalarının qiymətləndirməsindən qorxmayıblar”, - deyib.

### Yeni qanun layihəsinə görə...

Qeyd edək ki, bir müddət öncə prezident Salome Zurabişvilinin imzalamaqdan imtina etdiyi və şərh vermədən parlamentə qaytardığı qanun layihəsi sentyabrın 17-də Gürcüstan parlamentində qəbul olunub. Qanun layihəsinin məqsədi nikah, yetkinlik yaşına çatmayanların övladlığa götürülməsi və qəyyumluq, cinsiyyətin dəyişdirilməsi ilə bağlı tibbi prosedurların tətbiqi ilə bağlı məsələlərə aydınlıq gətirməkdir. Belə ki, dəyişikliklərə əsasən, kişi və qadının nikahından başqa hər hansı nikahın qeydə alınmasına, yetkinlik yaşına çatmayanların homoseksual cütlüklər tərəfindən övladlığa götürülməsinə və cinsiyyətin dəyişdirilməsi əməliyyatına qadağa qoyulur, əks halda 1 ildən 4 ilədək müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulur. Təhsil müəssisələrində LGBT təbliğatına görə fiziki şəxslər 1,5 min lari (555 dollardan çox), hüquqi şəxslər 4 min lari (1,4 min dollardan çox) məbləğində cərimə olunacaqlar. Yayımçılara eyni cinsdən olan intim səhnələri və ya oxşar məzmunlu reklamları yayımlamaq qadağan ediləcək. LGBT mövzulu reklamların yayılmasına görə fiziki şəxslər 800 lari (təxminən 297 dollar), hüquqi şəxslər 2,5 min lari (təxminən 929 dollar) məbləğində cərimələnəcək. Yetkinlik yaşına çatmayanlar arasında cinsiyyətin dəyişdirilməsi və ya homoseksual münasibətlər haqqında materialların yayılmasına görə fiziki şəxslər min lari (təxminən 371 dollar), hüquqi şəxslər üçün 3 min lari (1,1 min dollardan çox) məbləğində cərimə ediləcək. LGBT problemlərini təbliğ etmək məqsədi daşıyan ictimai toplantılar və nümayişlər də qadağan ediləcək. Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, cərimə ilə nəticələnən pozuntular iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə də cəzalandırılır.

Qeyd edək ki, parlamentin müxalifət fraksiyası müzakirələrdə və layihənin səsverməsində iştirak etməyib. Qanun layihəsini 81 deputat dəstəkləyib.



### Aİ çağırış etdi - narahatıq...

Qərbin siyasi analitikləri ard-arda qəbul edilən iki strateji qanunun Gürcüstanı “Avropadan bir az daha uzaqlaşdırdığı”nı düşünürlər. Buna əsas səbəb isə qəbul edilən qanun layihəsinə “qoca qitə”dən gələn reaksiyalardır. Belə ki, Avropa İttifaqının ali nümayəndəsinin mətbuat katibi Piter Stano verdiyi açıqlamada təmsil etdiyi qurumun “Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi” ilə bağlı qanun layihəsinin qəbulunu “tələsik” adlandırıb, bunu pisləyib. Verilən açıqlamada bildirilir ki, bu layihə Gürcüstan vətəndaşlarının “fundamental hüquqlarını” pozur və əhalinin bir hissəsi arasında damğalanma və ayrı-seçkiliyin artması təhlükəsi yaradır: “Avropa İttifaqı quruma inteqrasiya üçün əhəmiyyətli təsirləri olan mühüm qanunvericiliyin adekvat ictimai məsləhətləşmələr və onun Avropa və beynəlxalq standartlara uyğunluğunun dərin təhlili aparılmadan qəbul edilməsindən narahatdır”.

Qeyd edək ki, hər il Avropa Komissiyasının Genişlənmə Hesabatında qiymətləndirildiyi kimi, insan hüquqlarının təşviqi və müdafiəsi İttifaqın genişlənmə prosesinin əsasını təşkil edir. Bu isə o deməkdir ki, qəbul edilən qanun Aİnin genişlənmə planı ilə üst-üstə düşmür. Başqa sözlə, Gürcüstanın ailə dəyərlərinin qorunması istiqamətində atdığı addım Aİnin “prinsipləri” ilə uzlaşmır. Bu mənada, Avropa İttifaqı Gürcüstan hakimiyyətini bu qanunvericilik paketinə tamamilə yenidən baxmağa çağırış edib - verilən açıqlamalarda açıq şəkildə göstərilir ki, belə bir qanun layihəsinin qəbulu “Xarici təsirlərin şəffaflığı haqqında” qanununun vətəndaş cəmiyyətinə tətbiq etdiyi “məhdudiyyətlərin” ardından Gürcüstanın İttifaqa inteqrasiyasına təsir edəcək - münasibətləri daha da gərginləşdirəcək. Peter Stano Gürcüstan hakimiyyətinə Avropa İttifaqına üzvlük prosesinin faktiki olaraq dayandırıldığını xatırladıb və onları Aİ-yə inteqrasiya yoluna qayıtmağa çağırıb.

### Sanksiyalar genişlənir - vizasız rejimin ləğvi aktualdır...

Xatırladaq ki, bu ilin mayında “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbulundan sonra Qərbin Gürcüstana münasibəti tam dəyişib. Qərb son bir neçə ayda Gürcüstana qarşı demək olar ki, bütün mümkün sanksiyaları tətbiq etməkdən çəkinməyib. Belə ki, ABŞ Gürcüstana maliyyə yardımı proqramını, Avropa İttifaqı isə Gürcüstan Müdafiə Nazirliyinin maliyyələşdirilməsini dayandırıb. Eyni zamanda, qanun layihəsinin müəlliflərinin ABŞ-a girişi məhdudlaşdırılıb. Paralel olaraq Gürcüstanın Avropa İttifaqı ilə vizasız rejiminin də ləğvi aktualdır. Aİ-nin Tbilisidəki səfiri Pavel Xerçinski bir neçə gün öncə “Kommersant”a açıqlamasında bildirmişdi ki, Brüssel Gürcüstan hakimiyyətinin hərəkətlərinin qeyri-demokratik trayektoriyası davam edərsə, Gürcüstanla vizasız rejimin dayandırılmasının mümkünlüyünü istisna etmir. “Son aylarda Gürcüstanla Avropa İttifaqı (Aİ) arasında məsafə getdikcə artmaqdadır. Vəziyyət daha da pisləşərsə, Brüssel müxtəlif təsir alətlərindən istifadə etməyə hazırdır. Vizasız rejimin müvəqqəti dayandırılması belə alətlərdən biridir”.

Səfir bildirmişdi ki, Aİ oktyabrın 26-da keçiriləcək parlament seçkisinə hazırlığı diqqətlə izləyir və bu seçkinin ədalətli və azad olacağına ümid edir. Əks halda, Aİ seçkidən dərhal sonra Gürcüstan vətəndaşları üçün vizasız rejimi dayandıracaq.



Ən maraqlı detal isə vizasız rejimin ləğvi ilə bağlı qərarın Avropa Komissiyasının “təşəbbüsü” ilə irəli sürülmə ehtimalıdır - belə olacağı halda rejimin ləğvinə Aİ-yə üzv olan bütün ölkələrin yekdil dəstəyi tələb edilməyəcək.

Xatırladaq ki, Gürcüstan vətəndaşları 2017-ci ilin yazından Şengen ölkələrinə vizasız gediş-gəliş hüququndan istifadə edirlər. O vaxtdan bəri 250-300 min Gürcüstan vətəndaşı vizasız rejimdən istifadə edib.

### Seçkilər diqqət mərkəzindədir...

Göründüyü kimi, Gürcüstanda oktyabrın 26-na təyin edilmiş parlament seçkilərinin yaxınlaşması vəziyyəti daha da gərginləşdirir. Qərb ard-arda qəbul edilən adıçəkilən qanunların onun ölkədəki “dayaqlarına” mühüm təsirlər göstərəcəyini düşünür. Bəzi analitiklər açıq şəkildə bildirirlər ki, builki seçkilərdə bütün hallar gözləniləndir - hətta Qərbin müstəqil siyasi kurs yürütməyə çalışan hazırkı hakimiyyəti seçki yolu ilə devirmək, qərbyönlü qüvvələri hakimiyyətə gətirmək planları da mövcuddur.

***P.İSMAYILOV***

# Yaponiya texnologiya nəhənglərinin süni intellekt sahəsində inhisarına qarşıdır



Yaponiyanın antiinhisar nəzarəti orqanı bildirib ki, ABŞ-ın texnologiya nəhənglərinin yarımkeçiricilər və inkişaf üçün zəruri olan ixtisaslaşdırılmış kadrlar sahəsində üstünlük təşkil etdiyi şəraitdə ədalətli rəqabəti təşviq etmək məqsədi ilə sürətlə inkişaf edən generativ süni intellekt bazarı ilə bağlı araşdırma aparılır.

AZƏRTAC Kyodo agentliyinə istinadla xəbər verir ki, süni intellekt texnologiyasındakı sürətli irəliləyişlər Yaponiya Ədalətli Ticarət Komissiyasını bu mövzu ilə bağlı ictimai rəyə arxalanaraq antiinhisar və rəqabət risklərini qiymətləndirməyə sövq edib. Komissiya noyabrın 22-dək biznes və istifadəçilərin rəylərini toplayacaq və onları təhlilini aparacaq. İlk yekun hesabatın gələn ilin yazında açıqlanması gözlənilir.

Generativ AI-nin inkişafı yüksəksürətli emal üçün optimallaşdırılmış yarımkeçiricilərə və model təlimi üçün böyük həcmdə məlumatlara əsaslanır. Komissiya xəbərdarlıq edib ki, bu cür resurslara çıxışın məhdudlaşdırılması yeni oyunçuların bazara daxil olmasını qeyri-mümkün edə bilər.

Yaponiya, həmçinin ABŞ-ın çip nəhəngi “Nvidia Corp”un generativ süni intellekt üçün istifadə edilən yarımkeçiricilərdə qlobal bazar payının təxminən 80 faizinə sahib olması ilə bağlı narahatlığını ifadə edib və Komissiya bildirib ki, məlumatlar da bir neçə şirkət arasında cəmlənib.

Mütəxəssisləri inhisara almaq və süni intellekt əsasında öz məhsul və xidmətlərini prioritetləşdirmək üçün maliyyə gücündən istifadə edən İT nəhəngləri də daxil olmaqla, Komissiya tərəfindın beş əlavə risk də qeyd edilib. Yaponiyadan kənarda tənzimləyici orqanlar da generativ süni intellektin mövcud vəziyyətini başa düşmək üçün yarışırlar. Yanvar ayında Birləşmiş Ştatlar əsas İT şirkətləri arasında generativ süni intellektlə əlaqəli korporativ ittifaqlar və investisiyalar haqqında məlumat tələb edib, Avropa İttifaqı və Cənubi Koreya isə öz araşdırmalarına başlayıb.

Komissiyanın baş katibi Tetsuya Fujimoto çərşənbə günü keçirdiyi mətbuat konfransında bildirib: “Generativ süni intellekt iqtisadiyyat və cəmiyyətə çoxlu faydalar gətirsə də, biz onun düzgün şəkildə həyata keçirilməsini necə təmin edəcəyimizi araşdıracağıq”.

# NATO-nun yeni Baş katibindən Ukraynaya dəstək

## Mark Rutte hesab edir ki, Ukraynanın layiqli yeri alyansdadır

Niderlandın sabiq baş naziri Mark Rutte on il ərzində NATO-nun Baş katibi postunu tutan norveçli Yens Stoltenberqi əvəz edib. Yens Stoltenberqin səlahiyyət müddəti sentyabrın 30-da başa çatıb. 2014-cü il oktyabrın 1-dən alyansa rəhbərlik edən Stoltenberq Norveç nümayəndəsi kimi iki seçki dönəmində quruma rəhbərlik edib. Baş katib kimi onun səlahiyyət müddəti iki dəfə uzadılıb. 2022-ci ildə müddəti başa çatdıqda Ukrayna böhranı ilə əlaqədar daha bir il vəzifəsini icra edib. Ötən ilin avqustunda müttəfiqlər onun vəzifədə qalma müddətini daha bir il - 2024-cü ilin oktyabrına qədər uzatmaq qərarına gəlmişdilər. “Mənim üçün şərəfdir ki, NATO üzrə müttəfiqlər səlahiyyət müddətimi 1 oktyabr 2024-cü ilə qədər uzatmaq qərarı veriblər”, - deyə Stoltenberq o zaman bildirmişdi.

### Birinci prioritet NATO-nu güclü saxlamaqdır

Səlahiyyətin təhvil verilməsi mərasimi isə NATO-nun Brüsseldəki mənzil-qərargahında Şimali Atlantika Şurasının xüsusi iclasında baş tutub. Baş katib vəzifəsindən ayrılan Yens Stoltenberq 2014-cü ildə alyansa rəhbərlik etməyə başlayanda NATO-nun Ukraynaya yalnız kiçik dəstək verdiyini, lakin indi bu dəstəyin kütləvi olduğunu və koordinasiya üçün xüsusi qərargahın yaradıldığını bildirib.

NATO-nun yeni Baş katibi Mark Rutte isə alyansı gələcəyin çağırışlarına hazırlayacağını, maliyyələşdirməni artıracağını və innovasiyaları stimullaşdıracağını elan edib. O, birinci prioritetin NATO-nu güclü saxlamaq və bütün təhdidlərə qarşı effektiv müdafiəni təmin etmək olduğunu bildirərək deyib: “Bunun üçün bizə daha çox qüvvə, daha yaxşı imkanlar, daha sürətli innovasiya tempi lazımdır. Bu, daha çox investisiya tələb edəcək”. Baş katibin sözlərinə görə, NATO ölkələri müdafiəyə daha çox pul xərcləməli olacaq, çünki “mövcud çağırışlar və gələcək vəzifələrin” həlli üçün pulsuz alternativ yoxdur.

### Rutte: Güclü Ukrayna olmadan Avropada davamlı təhlükəsizlik ola bilməz

Vəzifəni təhvil alan Mark Rutte Ukrayna müharibəsini və alyansın müdafiə xərclərinin artırılmasını prioritet hesab etdiyini də deyib: “Prioritetlərimiz dəyişməz olaraq qalır. Biz Ukraynanın müstəqil demokratik dövlət kimi qalmasını təmin etməliyik. Müdafiə və çəkindirmə imkanlarımız baxımından xərcləri artırmalı, kollektiv müdafiə gücümüzü genişləndirməliyik”. Onun sözlərinə görə, NATO-nun hər bir ölkəsi Ukraynanın Rusiyanın dərinliklərinə zərbələr endirməsinə icazə verilməsi barədə qərarı müstəqil şəkildə qəbul etməlidir. “Hər bir müttəfiq Ukraynanın dəstəklənməsi məsələsində öz mövqeyini müəyyən etməlidir. Bu məndən asılı deyil. Bu, ayrı-ayrı müttəfiqlərə və onların Ukrayna ilə münasibətlərinə aiddir”, - deyə yeni Baş katib bildirib.

Eyni zamanda M.Rutte Ukraynanın özünümüdafiə hüququnu dəstəklədiyini vurğulayıb. Baş katib hesab edir ki, təhlükəsizliyin təmin olunması üçün dünyanın müxtəlif bölgələrində NATO tərəfdaşlıqları inkişaf etdirilməlidir: “Ukraynanın layiqli yeri NATO-dadır. Mənim ikinci prioritetim Ukraynaya dəstəyimizi gücləndirmək və onu NATO-ya daha da yaxınlaşdırmaqdır. Çünki güclü, müstəqil Ukrayna olmadan Avropada davamlı təhlükəsizlik ola bilməz. Üzərimizə düşəni etməliyik”.



### “Mark Rutte xroniki rusofobdur”

Artıq NATO-nun yeni rəhbərinin Ukrayna ilə bağlı fikirlərinə Rusiyadan açıqlama gəlib. Dövlət Dumasının deputatı Mixail Şeremet “RİA Novosti”yə müsahibəsində Şimali Atlantika Alyansının yeni rəhbərinin Rusiyaya qarşı düşmənçiliyini xəstəliklə müqayisə edərək bildirib ki, Mark Rutte xroniki rusofobdur. Şeremetin sözlərinə görə, Rusiyaya münasibətdə Rutte sələfindən heç nə ilə fərqlənmir: “Təəssüf ki, NATO strukturları mütərəqqi çılğınlıq və qeyri-adekvatlıq pandemiyası ilə əhatə olunub”.

Dumanın deputatı xatırladıb ki, NATO bloku tamamilə ABŞ-ın iradəsinə tabedir. Şeremet hesab edir ki, nəticədə aparılan siyasət tez-tez alyansın digər üzvü olan ölkələrə zərər verir.

Xatırladaq ki, daha əvvəl alyansın başçısı postuna namizədlərdən Danimarkanın Baş naziri Mette Frederediksen, Böyük Britaniyanın müdafiə naziri Ben Uelles, İspaniyanın Baş naziri Pedro Sançes və Rumıniya Prezidenti Klaus Yohannis alyansa üzv olan ölkələrin tam dəstəyini qazana bilməmişdilər. Bu vəzifəyə Niderlandın Baş naziri Mark Rutte layiq görüldü. Belə ki, bu ilin iyun ayında NATO-nun bütün 32 ölkəsi Mark Ruttenin alyansın baş katibi vəzifəsinə namizədliyi ilə razılaşdı və seçim iyulda Vaşinqtonda keçirilən alyansın sammitində təsdiqləndi. Rutte bu vəzifə üçün ABŞ tərəfindən güclü dəstəklənmişdi.

Qeyd edək ki, Mark Rutte 1967-ci il fevralın 14-də Haaqada anadan olub. O, siyasi karyerasına hələ 2002-ci ildə başlayıb. Daha sonra Sosial Məsələlər və Məşğulluq üzrə Dövlət Katibi vəzifəsinə təyin edilib, burada Rutte sosial təminat, maliyyə yardımı və iş şəraitinə cavabdeh olub. Hökumət istefa verəndən sonra deputat olub, sonra yenidən bu vəzifəyə təyin olunub. 2006-cı ilin mayından 2023-cü ilin avqustuna qədər Rutte Azadlıq və Demokratiya Uğrunda Xalq Partiyasının lideri olub. O, 2010-cu ilin oktyabrından etibarən 14 il Niderlandın Baş naziri vəzifəsini daşıyıb.

Beləliklə, yeni baş katibin prioritetlərində Ukraynaya dəstəyin daha gücləndirilməsi əsas yerlərdən birini tutur. Bu isə o deməkdir ki, qanlı müharibə hələ də davam edəcək.

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Mədəniyyət və incəsənət təzahürü...

## Beynəlxalq Memarlar Günüdür



Zövqümüzü oxşayan, ölkələrin və şəhərlərin simvolu kimi yaddaqalan binalar gündəlik həyatımızla ayrılmaz şəkildə bağlıdır. Bu abidələr sayəsində onların yaranma dövrünü, ölkənin sosial-iqtisadi səviyyəsini, xalqın adət-ənənələrini, mədəniyyətini, tarixini, milli-mənəvi irsini, hətta xarakterini müəyyən edirik.

Əsrlər boyu xalqların tarixində baş verən dəyişikliklər özünü həmin xalqın memarlıq sənətində büruzə verib. Memarlıq yalnız xalqın mədəniyyətindən, eyni zamanda həmin ərazidə kimlərin yaşayıb-yaratdıqlarından da xəbər verir. Mədəniyyətin və incəsənətin bütün zahiri formalarını özündə cəmləşdirən tikililər üslublarına görə 3 əsas qrupa bölünür: tipik Şərq, qədim Avropa və müasir tikililər.

**Qeyri-adi memarlıq nümunələri...**

Tarixin müxtəlif dövrlərindən bu günə qədər inşa edilmiş abidə və heykəllər özünəməxsus xüsusiyyətlərə malik olub. Belə ki, onların yaradılmasında müəyyən səbəb və məqsədlər var. Onlardan bəziləri vəfat etmiş şəxsin xatirəsini yaşatmaq naminə, digərləri isə insanların maraq və diqqətini çəkmək üçün inşa edilib. Sadaladığımız ikinci varianta aid olan heykəltəraşlıq nümunələri kreativ və orijinal obrazlarla seçilir. Bunların hər biri standartlardan kənarlaşaraq yüksək məharət və ustalıqla ərsəyə gətirilib.

**Ayaqqabı ev**

Evin dizaynı 1948-ci ildə ABŞ-da çəkməçi Mahlon Haines tərəfindən təklif edilmişdi. Evin hündürlüyü 7,6 metr olmaqla 5 mərtəbədən ibarətdir. Çəkməçi öz düzəltdiyi çəkməni memara göstərərək, onu kimi ev tikməyini xahiş edir. Evin qonaq otağı barmaqlarda, mətbəx ayaqqabının daban hissəsində, yataq otaqları isə topuq hissəsində yerləşir.

**Longaberger binası**

ABŞ-ın Ohio ştatında tikilən bina dünyanın ən böyük taxta piknik səbəti halında olan memarlıq nümunəsidir. Layihəsi "Longaberger" firması tərəfindən hazırlanan 7 mərtəbəli tikili, eyni zamanda, firmanın mərkəzi binasıdır.

**Piano Ev**

Çinin An Hui əyalətində yerləşən bu piano və kaman görüntülü ev olduqca qeyri-adi görünüşə sahibdir. Bu binanın içərisində "yeriyən" nərdivan yerləşir.

**Lotus məbədi**

Hindistandakı bu binanın görünüşü nəhəng lotos gülünü xatırladır və 27 ləçəkdən ibarətdir. Həmin ləçəklər 3 mərtəbə formasında qurulub. Məbədin hündürlüyü 34 metrdir və məbədin daxilində 1.300 nəfər insan eyni anda ibadət edə bilər.



Məbədin unikallığı ondadır ki, burada bir ədəd də olsa düz xətt boyunca yerləşən hissə yoxdur. Məbədin tikilməsi üçün İrandan Fariburz (Fariburz Sahba) dəvət edilmişdi. Tikinti işləri 1980-ci ildə başlasa da, 1986-cı ilin dekabrında yekunlaşdırılmışdı.

Yeri gəlmişkən, oktyabrın 4-ü Beynəlxalq Memarlar Günü kimi qeyd olunur. Həmin gün 1949-cu il oktyabrın 4-də İsveçrənin Lozanna şəhərində təsis edilib.

**Mədəniyyət incilərimiz...**

Əsrlər boyu milli memarlıq abidələri yaradılan Azərbaycanda da bu əlamətdar gün hər il qeyd olunur. Naxçıvan, Təbriz-Sultaniyyə, Şirvan-Abşeron, Şəki-Zaqatala, Bərdə-Qarabağ və digər memarlıq məktəblərinin məhsulu olan gözəl memarlıq və şəhərsalma əsərləri bunun bariz göstəricisidir. Hələ qədim zamanlardan ev tikmək, el-oba salmaq, körpü inşa etmək, qurmaq-yaratmaq dədə-babalarımızın müqəddəs işi olub.

Əcdadlarımız əsrlərin yaşıdı olan qalalar, saraylar, məbədlər, türbələr tikib, istehkamlar qurub, bu günümüzə qədər gəlib çatan "körpü"lər salıblar. Qız qalası, Şirvanşahlar sarayı, Xudafərin körpüsü, Kiş məbədi, Möminə Xatun türbəsi və saymadığımız yüzlərlə tikili memarlarımızın əl əməyinin məhsuludur.

*Yeganə BAYRAMOVA*

# Onları qorumaq borcumuzdur

## Beynəlxalq Heyvanları Müdafiə Günüdür...

Heyvanlara qayğı göstərmək hər birimizin insanlıq vəzifəsidir. Bu canlıları qorumaq təbiətimizi, dünyamızı və həyatımızı qorumaq deməkdir. Araşdırmalara görə, heyvanlara qayğı göstərmək insanlarda, xüsusilə də azyaşlı uşaqlarda məsuliyyət hissini artırır. Bəzi valideynlər övladlarına ev heyvanları ilə oynamağı qadağan edir. Bu zaman azyaşlılarda onlara qarşı fobiyanın yaranması qaçılmazdır. Təəssüf ki, belə hallar gələcəkdə onların heyvanlara qarşı kobud rəftarı üçün bir zəmin yaradır.

Hər il oktyabrın 4-ü Heyvanların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. Heyvanların Müdafiə Günü insanların heyvanlara qarşı qəddarlığını dayandırmaq, hər bir canlının layiq olduğu həyatı yaşaması üçün cəmiyyəti bu barədə maarifləndirmək məqsədilə heyvan hüquqları və rifahını qeyd edən xüsusi bir gündür. Heyvanların Beynəlxalq Müdafiəsi Günü orta əsr İtaliyasında heyvanların himayədarı olaraq tanınan müqəddəs Fransiskin vəfat etdiyi gün olaraq 4 oktyabr seçilib.

**Heyvanların da hüquqları var...**

15 oktyabr 1978-ci il tarixində Parisdə YUNESKO-da elan edilmiş Heyvan Hüquqlarının Ümumdünya Bəyannaməsinə əsasən, heyvanlar müəyyən hüquqlara malikdirlər. Belə ki, bütün heyvanlar bərabər hüquqlarla doğulurlar və eyni yaşamaq hüququna malikdirlər. Onların da hörmət olunmaq hüququ var. İnsan başqa heyvanları məhv edə bilməz. O, bu hüququ pozaraq onlardan istifadə edə bilməz. Bütün heyvanların qayğı və müdafiə hüququ var. Heç bir heyvana pis rəftar və qəddarlıq sərgilənə bilməz. Əgər heyvanı öldürmək məcburi şəkildə lazımdırsa, bu, ağrı vermədən və qorxutmadan dərhal edilməlidir. Bütün vəhşi heyvanların quruda, havada və suda öz şəxsi təbii mühitində yaşamaq və çoxalmaq hüququ var.



Bütün işləyən heyvanların məhdud iş vaxtı və intensivliyi, güclərini artırmaq üçün qidalanma və istirahət hüququ var. Heyvanlara fiziki və ya psixoloji ağrı verən təcrübələr heyvanların hüquqlarına ziddir. İstər tibbi, istər elmi, istər kommersiya, istərsə də başqa cür təcrübələr üçün belədir. Heyvan yemək üçün yetişdirilsə belə, ona baxılmalı, saxlanmalı, daşınmalı, ölümü iztirabsız və qorxusuz olmalıdır. Heyvanlardan insanların əylənməsi üçün istifadə edilə bilməz, heyvanlara baxmaq və heyvanlardan istifadə edilən şoular heyvan ləyaqətinə ziddir.

Çoxlu sayda vəhşi heyvanın öldürülməsi mənasına gələn hər hansı əməl soyqırımdır, yəni cinayətdir. Heyvanların ölümünə də hörmət edilməlidir. Heyvanların öldürüldüyü zorakılıq səhnələri kino və televiziyada qadağan edilməlidir. Heyvanların hüquqları insan hüquqları kimi qanunla qorunmalıdır.

**"Qırmızı kitab"a düşən heyvanların sayı artır**

Nəsli kəsilməkdə olan heyvanların sayı ilbəil artır. Təkcə Azərbaycanda 1989-cu ildə nəşr edilmiş "Qırmızı kitab"a 188 heyvan adı daxil edilmişdisə, 2013-cü ildə kitabın yenidən nəşrində 223 heyvan növü yer alıb. İqlim dəyişiklikləri, insanların təbiətə və heyvanlara laqeyd yanaşması, öz mənafeləri naminə heyvanların öldürülməsi "Qırmızı kitab"a düşən növlərin sayını artırır.

Təəssüf ki, bu siyahını daha da artırmaq mümkündür. Hər biri möhtəşəm görünüşə və heyratamiz qabiliyyətlərə sahib olan bu heyvanların təbiətdən silinəcək olması çox təəssüfedici haldır. Nəsli kəsilən hər bir canlı təbiətimizdə ağır yaralar açır. Bunun qarşısının alınması isə onlara ən çox ziyan vuran bizə düşür. Bir çox ölkələrdə heyvanların qorunması üçün addımlar atılıb. Məsələn, Avstriyada heyvanlar haqqında bir sıra qanunlar qəbul edilib. Bu qanunlara əsasən, toyuqları dar qəfəsdə saxlamaq, itlərin quyruğunu və qulaqlarını kəsmək, bağlamaq və digər heyvanlara qarşı edilən qəddarlıqlar cinayət hesab olunur və ağır şəkildə cəzalandırılır. Bununla bağlı bir çox ölkələrdən misallar gətirə bilərik. Ölkəmizdə də heyvanların qorunması üçün qanunlar qəbul edilib və ciddi addımlar atılıb.

*Yeganə BAYRAMOVA*



# AFFA-nın inkişaf strategiyası ilə bağlı növbəti görüşlər keçirilib



AFFA-nın inkişaf strategiyasının yazılması ilə əlaqədar növbəti görüşlər keçirilib.

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, yeni strategiya ilə bağlı tərəfdaş şirkətlərin nümayəndələrinin Bakıda görüşləri təşkil olunub. Onlar Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının nümayəndələri, AFFA rəhbərliyi, milli komandanın baş məşqçisi, təcrübəli yerli futbol funksionerləri, eləcə də milli assosiyasiyanın departamentləri ilə fikir mübadiləsi aparıb, məlumatların toplanma prosesini həyata keçiriblər.

Cari vəziyyətlə bağlı toplanmış məlumatlar və yığılmış təklifləri nəzərə alaraq, şirkətlər tərəfindən strategiyanın yazılması prosesi davam edir.

# Bakıda 3-cü beynəlxalq "Ocaq kuboku"na start verilib

Bakıda "Ocaq Sport" klubunun təşkilatçılığı ilə keçirilən bədii gimnastika üzrə 3-cü beynəlxalq "Ocaq kuboku"na start verilib.




AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında təşkil olunan yarışda 10 ölkəni təmsil edən 37 klubdan 400 fərdi gimnast və 16 qrup komandası medallar uğrunda mübarizə aparır.

Turnirdə 2009-2018-ci il təvəllüdlü gimnastlar həm fərdi, həm də qrup hərəkətləri proqramında ayrı-ayrı alətlər və çoxnövçülük üzrə bacarıqlarını nümayiş etdirirlər.

Qeyd edək ki, "Ocaq kuboku"na oktyabrın 6-da yekun vurulacaq.

# Azercell yenilənmiş "Premium" tarif paketlərini təqdim edir

Ölkənin lider mobil operatoru "Premium" tariflərinin imkanlarını genişləndirir. Oktyabr ayının 1-dən etibarən "Premium" abunəçilərinə daha sərfəli danışıq xidmətləri təqdim edilir, paketlərin aylıq abunə haqqı və digər imtiyazlar isə dəyişməz olaraq qalır.

Belə ki, "Premium" tarif paketləri çərçivəsində təqdim edilən şəbəkədaxili və şəbəkəxarici dəqiqələr ümumi ölkədaxili danışıq dəqiqələri ilə əvəz edilir. Bu da abunəçilərə daha rahat danışmaq, həm də nömrənin balansını daha rahat nəzarətdə saxlamaq imkanı verir. Abunəçilər seçdikləri "Premium" tarif paketindən asılı olaraq 3000, 4000 və ya 5000 ölkədaxili dəqiqədən yararlana bilərlər.

Həmçinin "Premium" tarif paketləri çərçivəsində abunəçilərə təqdim edilən "Premium+" loyallıq proqramında da dəyişikliklər tətbiq edilir.

Xatırladaq ki, proqrama fərdi "Premium Müştəri Dəstək Xətti", Azercell Eksklüziv ofislərində "Sürətli keçid"




xidməti, Mobil Müştəri Xidmətindən ödənişsiz istifadə, Telefon Mərkəzinin xidmətlərindən növbədənkənar və ödənişsiz yararlanmaq imkanı, ad günü hədiyyələri, eləcə də digər imtiyazlar daxildir.

Proqrama aşağıda göstərilən yeniliklər əlavə edilir:

- "Kinon Premium"dan istifadə imkanı: Premium tarifinin istifadəçilərinə xüsusi təklif şəklində 6 ay ərzində "Kinon Premium" xidmətindən yararlanmaq imkanı verilir. Bu xüsusi təklifi aktivləşdirmək üçün Premium abunəçiləri telefonun ekranında *805#YES yığa bilərlər. Təklifin müddəti bitdikdən sonra isə aylıq ödəniş cari tariflər üzrə hesablanacaq və 9 AZN təşkil edəcək.

Kinon 240-dan çox kanalın yüksək keyfiyyətli canlı yayımını, eləcə də məşhur film studiyalarının yeni film və seriallarını bir tətbiqdə birləşdirir. Xidmətdən eyni anda müxtəlif cihazlarda, ən əsası isə bir abunəlik çərçivəsində 5 fərqli hesab yaradaraq yararlanmaq mümkündür.

"Kinon"dan Android və iOS əməliyyat sistemlərini dəstəkləyən bütün smartfonlarda, Android TV və Samsung Smart TV-lərdə, planşetlərdə və digər cihazlarda



| Tarif | İnternet | Ölkədaxili zənglər (dəq.) | Rouminq | Qiymət (AZN) |
|---|---|---|---|---|
| Premium 50GB | 50GB | 3000 | 1GB | 59 |
| Premium 75GB | 75GB | 4000 | 2GB | 79 |
| Premium 100GB | 100GB | 5000 | 3GB | 99 |

Premium

istifadə etmək olar. Tezliklə xidmət LG Smart TV-lər üçün də əlçatan olacaq. Tətbiqi "Google Play" və "AppStore"dan yükləmək mümkündür.

- Azercell tətbiqində eksklüziv "Premium qızıl" dizayn: İyul ayının 31-dən etibarən Premium abunəçilərinin istifadəsinə xüsusi "Premium qızıl" rəngli interfeys təqdim edilib. Bu interfeys istifadəçilərə həmçinin "Premium+" loyallıq proqramının bütün üstünlükləri haqqında rahatlıqla məlumat əldə etmək və onlardan yararlanmaq imkanı verir.

Yeni dizaynın təqdim etdiyi eksklüziv xüsusiyyətlər gözəl vizual görünüş yaratması ilə yanaşı, müştəri-yönümlüdür və tətbiqdən istifadə təcrübəsini də təkmilləşdirir. Əsas səhifəyə əlavə olunan xüsusi "Premium" vidjet isə "Premium+" səhifəsinə keçidi asanlaşdırır. Premium tarifinin abunəçiləri üçün eksklüziv təqdim edilən ödənişsiz xidmətlər haqqında məlumatlar məhz burada öz əksini tapır.

Premium tarif paketləri və "Premium+" loyallıq proqramı haqqında ətraflı məlumat üçün https://bit.ly/azercell_premium səhifəsinə keçid etməyiniz xahiş edilir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4800**
**Sifariş: 2255**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI